16 avqust 2023 №60 (2029)
www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
Qəzet 1991-ci ilin yanvarından çıxır

## Mədəniyyətimizin böyük hamisi



"...Mən şeirə də, mahnıya da çox hissiyyatlı adamam. O misraları, o sözləri, o musiqini həyəcansız dinləyə bilmirdim. Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var! Biz nə qədər zənginik! Biz özümüz-özümüzü çox vaxt qiymətləndirə bilmirik. Xalqımızın zəngin mədəniyyəti keçmişdə də olub, bu gün də var, ümidvaram ki, gələcəkdə də olacaqdır...

İnsanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur... Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır... Bu milli ideologiya indi böyük bir sistem şəklində deyil, yəni bir sənəd, bir proqram yoxdur. Amma bu olmalıdır... Bunları toplayıb, sistemləşdirib formalaşdırmaq üçün bizim böyük bir sərvətimiz var. O sərvət də bizim mədəniyyətimizdə, ədəbiyyatımızdadır...".

*(Ulu öndər Heydər Əliyevin 1995-ci il 16 apreldə Xalq şairi Məmməd Arazın yaradıcılıq gecəsindəki çıxışından)*

səh. 5

## Uşaq İncəsənət Festivalının finalına sayılı günlər qalır...

### Müvafiq nominasiyalar üzrə iştirakçılar yekun mərhələyə keçmələri barədə məlumatı festivalın saytında öyrənə bilərlər

Müstəqillik tariximizin ən böyük incəsənət layihələrindən olan Uşaq İncəsənət Festivalının final mərhələsinə sayılı günlər qalır.

Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Mədəniyyət Nazirliyi, Elm və Təhsil Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkil etdiyi festival "BP Azerbaijan" şirkətinin baş sponsorluğu ilə keçirilir.

Qeyd edək ki, 21 nominasiyada üç yaş qrupu (6-9 yaş, 10-13 yaş və 14-17 yaş) üzrə keçirilən festival üç turdan ibarətdir.

Festivala respublikamızın bütün rayon və şəhərlərindən 27 minədək müraciət olub. Peşəkar və həvəskar kateqoriyaları üzrə keçirilən festivalın birinci mərhələsi aprel-iyun, II mərhələsi isə iyul-avqust aylarını əhatə edir.

İkinci – regional mərhələdə iştirak edənlər final mərhələsinə keçmələri, o cümlədən festivalda iştirakın müəyyən edilən vaxtı və məkanı haqqında məlumatları www.uif.az internet portalından ala bilərlər. Bunun üçün festivalın saytında "Final mərhələsi" bölməsinə keçid edərək iştirakçının qeydiyyat kodunu və ya şəxsiyyət vəsiqəsinin FİN nömrəsini yazmaq lazımdır.

Müsabiqənin final mərhələsi sentyabr ayında Bakı şəhərində keçiriləcək.




Festivalın yekununda ən çox nominasiya üzrə iştirak etmiş və fəallıq göstərmiş şəhər və ya rayon növbəti il festivala ev sahibliyi hüququ qazanacaq.

## Türkiyənin media nümayəndələri Qarabağda və Şərqi Zəngəzurda

Avqustun 14-də Türkiyənin media nümayəndələrinin Qarabağa və Şərqi Zəngəzura səfəri başlayıb.

Əvvəlcə işğaldan azad edilmiş Ağdam şəhərinə gələn media mənsubları bərpası davam edən Ağdam Cümə məscidinə baxış keçiriblər. Prezidentin Xüsusi nümayəndəliyinin əməkdaşı jurnalistlərə ermənilərin müharibə cinayətləri, mədəni, tarixi, dini abidələrimizi məhv etmələri və Ağdam işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən həyata keçirilən bərpa-quruculuq işləri barədə məlumat verib. Bildirilib ki, erməni vandalizminə məruz qalan tarixi-dini abidələrdən biri də Ağdam şəhərindəki Cümə məscididir. 1868-1870-ci illərdə memar Kərbəlayı Səfixan Qarabağinin layihəsi üzrə tikilən məscid ölkə əhəmiyyətli abidələr siyahısındadır. Ağdamı yerlə yeksan edən ermənilər məscidi hərbi məqsədlərə görə dağıtmayıb, onun minarələrindən koordinasiya üçün istifadə ediblər. Məscidin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub. Ağdam şəhəri işğaldan azad olunduqdan sonra məsciddə bərpa-restavrasiya işlərinə başlanılıb.



Türkiyəli media təmsilçiləri Ağdam-Xankəndi və yeni inşa olunan Bərdə-Ağdam avtomobil yolları, həmçinin Ağdam şəhərində salınan çoxmənzilli yaşayış məhəlləsi ilə tanış olublar.

davamı səh. 4-də

## Şuşada daha bir kütləvi məzarlıq aşkarlanıb

Şuşa şəhərinin erməni işğalında olduğu dövrdə törədilən vəhşiliyin daha bir izi üzə çıxıb. Avqustun 15-də Şuşada növbəti kütləvi məzarlıq aşkarlanıb.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının əməkdaşları məzarlığın aşkarlandığı əraziyə baş çəkiblər. Qeyd olunub ki, avqustun 1-15-dək aparılan qazıntı işləri nəticəsində Şuşa həbsxanası ərazisində 17 şəxsə aid insan qalıqları aşkar olunub. Onlardan 11-i bütöv, 6-sı isə skeletin hissələri şəklində tapılıb.



Xatırladaq ki, cari ilin iyununda da Şuşa həbsxanasının ərazisində kütləvi məzarlıq aşkarlanıb.

Dövlət Komissiyasının əməkdaşı Zaur İsmayılov bildirib ki, insan qalıqlarının aşkarlandığı məzarlıq Şuşa həbsxanasının ərazisində çirkab sularının yığılması üçün istifadə edilən quyu olub. İşgəncələr nəticəsində vəfat edən əsir və girovlar həmin quyuya atılıb. Hətta aşkarlanan altı nəfərə aid meyit qalıqlarının qarın nahiyəsində nal mismarları tapılıb. Çoxlarında kəsici-deşici alətlərlə zərbə yerləri mövcuddur və işgəncə yerləri açıq-aydın görünür.

Onun sözlərinə görə, Şuşa həbsxanasının ərazisində ümumilikdə yay ərzində 34 nəfərə aid insan qalıqları aşkar edilib.

davamı səh. 2-də

## Prezident yubilyar sənətkarları təltif edib

Prezident İlham Əliyevin avqustun 7-də imzaladığı sərəncamlarla Azərbaycanın Xalq artistləri – görkəmli kino xadimi Rasim Balayev "İstiqlal", aktyor, rejissor Yuli Qusman "Şərəf" ordenlərinə layiq görülüb.

Dövlət başçısının avqustun 14-də imzaladığı daha iki sərəncamla görkəmli aktyor, Xalq artisti Ramiz Məlik "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu", tanınmış müğənni Akif İslamzadə isə "Şöhrət" ordeni ilə təltif olunub.

Qeyd edək ki, bu il Ramiz Məlik və Rusiyada yaşayan Yuli Qusmanın 80 illik, Rasim Balayev və Akif İslamzadənin isə 75 illik yubileyləridir.

səh. 2

## Gənc kinematoqrafçılar sahənin inkişafı ilə bağlı nə düşünürlər?

Avqustun 14-də Mədəniyyət Nazirliyində gənc kinematoqrafçılarla görüş keçirilib.

Görüşdə dövlət tərəfindən mədəniyyətin digər sahələri kimi, kinematoqrafiya sahəsinə də diqqət və qayğı göstərildiyini deyən nazir Adil Kərimli ölkə başçısının bununla bağlı müvafiq fərman və sərəncamlar imzaladığını diqqətə çatdırıb.

Gənc kinematoqrafçıların fikir və təklifləri dinlənilib, kino sahəsinin inkişaf məsələlərinə dair geniş müzakirə aparılıb.

səh. 5

## San-Remo şəhərində Ulu öndərin 100 illiyi münasibətilə konsert



İtaliyanın San-Remo şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "O Patro Mia" ("Ey mənim atam") adlı konsert keçirilib.

İtaliyada yaşayan azərbaycanlı bəstəkar Kəmalə Əlizadə və onun həyat yoldaşı, bəstəkar-musiqiçi Stefano Muskaritolonun təşkilatçılığı ilə gerçəkləşən tədbirdə yerli ictimaiyyətin nümayəndələri, media mənsubları iştirak ediblər.

səh. 5

## Azərbaycan Dili və Ədəbiyyatı Forumuna qeydiyyat davam edir

Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə 2-4 sentyabr tarixlərində Azərbaycan Dili və Ədəbiyyatı Forumu keçiriləcək.

Forumda Azərbaycan dili və ədəbiyyatı ilə bağlı bütün aktual məsələlər ilk dəfə geniş formatda müzakirə ediləcək.

səh. 3

## Bədii tədris müəssisələrinin modernləşdirilməsi əsas vəzifələrdəndir

Mədəniyyət Nazirliyi tərəfindən uşaq incəsənət və musiqi məktəblərində direktor, direktor müavini və müəllimlərin işə qəbulu prosesinin ikimərhələli sistemlə həyata keçirilməsinə başlanılıb.

Birinci mərhələ – test mərhələsi Dövlət İmtahan Mərkəzi ilə birgə təşkil olunur. İkinci mərhələ isə müsahibə şəklində qabiliyyətin yoxlanılmasından ibarətdir.

səh. 7

## "Zənn elədim bəxtiyaram..."



Avqustun 16-sı XX əsr Azərbaycan fəlsəfi poeziyasının görkəmli nümayəndəsi, şair-dramaturq, ədəbiyyatşünas-alim, ictimai xadim, Xalq şairi, Dövlət mükafatı laureatı Bəxtiyar Vahabzadənin (1925-2009) anadan olmasının 98-ci ildönümüdür.

Qədim Şəkidə dünyaya göz açan şair zəngin yaradıcılığı ilə bədii fikrimizin inkişafında mühüm rol oynayıb. O, azərbaycançılıq məfkurəsinə dərindən bağlı olan və özünüdərkə çağıran çoxsaylı əsərləri ilə ədəbiyyatımızın inkişafına töhfələr verib. Tariximizin qədim dövrlərindən bəri müxtəlif mərhələlərində baş vermiş taleyüklü hadisələr, böyük şəxsiyyətlərin parlaq simaları edibin diqqət mərkəzində olub.

Azərbaycan Dövlət Universitetinin Filologiya fakültəsindən məzun olan B.Vahabzadə bu təhsil ocağının aspiranturasında təhsilini davam etdirib. 1951-ci ildə "Səməd Vurğunun lirikası" mövzusunda namizədlik (fəlsəfə doktoru), 1964-cü ildə isə "Səməd Vurğunun həyat və yaradıcılığı" mövzusunda elmlər doktorluğu dissertasiyalarını müdafiə edib. 1980-ci ildə Azərbaycan EA-nın müxbir üzvü seçilib, 2000-ci ildə isə AMEA-nın həqiqi üzvü olub. 1995 və 2000-ci illərdə Milli Məclisin deputatı seçilib.

Ədəbi aləmdə ilk olaraq "Gülüstan" poeması ilə şöhrət qazanan şair sonralar bir-birindən maraqlı şeir, poema və dram əsərləri qələmə alıb. Müəllifin "İkinci səs", "Vicdan", "Yağışdan sonra", "Yollara iz düşür", "Hara gedir bu dünya?", "Fəryad", "Özümüzü kəsən qılınc" və digər lirik-psixoloji pyesləri bir sıra teatrlarda tamaşaya qoyulub.

Əsərləri onlarla dilə tərcümə edilib, bir sıra ölkələrdə çap olunub.

İstiqlal ideyalarının yorulmaz və bənzərsiz tərənnümçüsü olan şair 13 fevral 2009-cu ildə vəfat edib.

"Xəzərin sahilində" – Sumqayıtda konsert və plener



səh. 4




TÜRKSOY məktəblilər arasında müsabiqəyə yekun vurub

səh. 8

№60 (2029)
16 avqust 2023
www.medeniyyet.az

## R.Ə.Balayevin "İstiqlal" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Rasim Əhməd oğlu Balayev "İstiqlal" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 7 avqust 2023-cü il**

## Y.S.Qusmanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında mədəni əlaqələrin inkişafında böyük xidmətlərinə görə Yuli Solomonoviç Qusman "Şərəf" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 7 avqust 2023-cü il**

## A.Q.İslamzadənin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlərinə görə Akif Qədir oğlu İslamzadə "Şöhrət" ordeni ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 avqust 2023-cü il**

## R.A.Məlikin "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

Azərbaycanda teatr sənətinin inkişafında uzunmüddətli səmərəli fəaliyyətinə görə Ramiz Ağarza oğlu Məlik "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif edilsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 14 avqust 2023-cü il**

## Prezident İlham Əliyev Vladimir Putinə və Dağıstan rəhbərinə başsağlığı verib

Azərbaycan Prezidenti İlham Əliyev Rusiya Federasiyası Dağıstan Respublikasının Mahaçqala şəhərində yanacaqdoldurma stansiyasında baş vermiş partlayış nəticəsində çoxsaylı insan tələfatı ilə bağlı Prezident Vladimir Putinə başsağlığı verib.

"Sizə, həlak olanların doğmalarına və yaxınlarına Azərbaycan xalqı adından və şəxsən öz adımdan dərin hüznlə başsağlığı verir, bütün xəsarət alanlara şəfa diləyirəm", – deyə başsağlığı məktubunda bildirilir.

Prezident İlham Əliyev faciə ilə bağlı Dağıstan rəhbəri Sergey Məlikova da başsağlığı verib.

Qeyd edək ki, avqustun 14-də gecə saatlarında Mahaçqalada avtoservisdə yanğın baş verib. Sonradan alov yaxınlıqdakı yanacaqdoldurma məntəqəsinə keçib və partlayış baş verib. Partlayış nəticəsində 35 nəfər həlak olub, 100-dək insan xəsarət alıb. Çoxsaylı tələfatla əlaqədar avqustun 15-də Dağıstanda matəm elan olunub.

## "Laçın yolu ilə bağlı Azərbaycana qarşı tənqidlərə heç bir əsas yoxdur"

### Türkiyə XİN bəyanat yayıb

Türkiyə Laçın yolu ilə bağlı uzun müddətdir davam edən müzakirələri yaxından izləyir və Azərbaycanın bu məsələ ilə bağlı haqlı narahatlığını anlayır.




Bu barədə Türkiyə Xarici İşlər Nazirliyi bəyanat yayıb.

"Təəssüf ki, Azərbaycanın uzun müddətdir yüksək səslə səsləndirdiyi bu narahatlıqlar nəzərə alınmadı və nəticədə Azərbaycan öz suveren hüquqları çərçivəsində məqsədəuyğun hesab etdiyi tədbirləri həyata keçirdi.

Türkiyə bu fikirdədir ki, Laçın yolu ilə bağlı Azərbaycana qarşı tənqidlərə heç bir əsas yoxdur. Hazırda Laçın yolundan tibbi keçidlərin təmin edilməsi, eləcə də yüklərin daşınması üçün alternativ olan digər marşrutlar Azərbaycan tərəfindən vicdanla maksimum səy göstərdiyini deməyə əsas verir.

Bizim Ermənistandan gözləntimiz təxribat xarakterli addımlardan çəkinmək, Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini tanımaq, Qarabağda erməni əhalisinin ehtiyacları ödəmək üçün Ağdam-Xankəndi və digər alternativ yollardan istifadəni dəstəkləmək, eləcə də Azərbaycanın erməni əhalisini reinteqrasiya etmək səylərinə dəstək verməkdir.

Türkiyə hesab edir ki, regionda sülh və sabitliyin təmin edilməsi üçün dost və qardaş Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və humanitar səyləri dəstəklənməli, vəziyyəti gərginləşdirən hərəkətlərə yol verilməməlidir", – deyə bəyanatda vurğulanır.

# Regionda musiqi təhsili üçün paytaxtdan geri qalmayan şərait

### Samuxun Sərkar kəndində musiqi məktəbinin yeni binası istifadəyə verilib



Xəbər verdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 7-də Qazax, Şəmkir, Samux və Bərdə rayonlarına səfər edib. Dövlət başçısı yerlərdə həyata keçirilən infrastruktur layihələri ilə tanış olub. Bir sıra yeni müəssisələrin açılışı keçirilib.

Prezident Samux rayonunun Sərkar kəndində Heydər Əliyev Fondunun "Təhsilə dəstək" layihəsi çərçivəsində inşa olunan uşaq musiqi məktəbinin yeni binasının açılışında iştirak edib.

Prezidentin köməkçisi Anar Ələkbərov binada yaradılan şərait barədə məlumat verib.

Bildirilib ki, Sərkar kənd musiqi məktəbinin köhnə binası 1935-ci ildə inşa olunmuş kolxoza aid birmərtəbəli tikili olub. Məktəb 2002-ci ildən burada fəaliyyət göstərib və bina ötən müddət ərzində istifadəyə yararsız vəziyyətə düşmüşdü.

Heydər Əliyev Fondu tərəfindən üç yüz şagird yeri olan yeni məktəb binası inşa edilib. Məktəbin ümumi ərazisi 0,5 hektar, üçmərtəbəli korpusun sahəsi isə 2500 kvadratmetrdir.

Binada 29 dərs otağı, orkestr, xor və tibb otaqları, qarderob, kitabxana, yeməkxana və akt zalı var. Təhsil ocağı zəruri mebel, avadanlıq və əyani vəsaitlə tam təchiz edilib. Binanın daxilində və ərazidə videomüşahidə kameraları quraşdırılıb. Həyətyanı ərazidə abadlıq və yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemləri quraşdırılıb.

Dövlət başçısına Heydər Əliyev Fondu tərəfindən Samux rayonunun Sərkar kəndində görülmüş digər işlər barədə də məlumat verilib.

Qeyd edilib ki, kənddə yeni salınmış park istifadəyə verilib. Açıq havada idmanla məşğul olmaq üçün əlverişli imkan yaradılıb, ərazidə müxtəlif trenajorlar qoyulub. Heydər Əliyev Fondunun dəstəyi ilə Sərkar kəndində yeni tibb məntəqəsi də fəaliyyətə başlayıb. Həkim otağı, sarğı otağı və texniki otaqdan ibarət olan tibb məntəqəsi zəruri tibbi avadanlıqla təmin edilib.



Hazırda Samux şəhərində Heydər Əliyev Fondu tərəfindən 3 saylı körpələr evi-uşaq bağçası üçün də yeni bina inşa olunur.

Xatırladaq ki, Heydər Əliyev Fondu Samux rayonunda indiyədək bir sıra layihələr həyata keçirib. Fond tərəfindən Sərkar kəndində 800 şagird yerlik tam orta məktəb və körpələr evi-uşaq bağçası yenidən inşa edilərək 2020-ci ildə istifadəyə verilib. Həmin il rayonun Ziyadlı kəndində 523 şagird yerlik orta məktəb əsaslı təmir olunub, körpələr evi-uşaq bağçası üçün bina inşa edilib.

# Ölkənin qeyri-neft iqtisadiyyatı xəritəsində yeni ünvan

Prezident İlham Əliyev avqustun 15-də Bakının Pirallahı rayonunda "Diamed" dərman istehsalı zavodunun açılışında iştirak edib.

İqtisadiyyat naziri Mikayıl Cabbarov və "Diamed Development Group" MMC-nin təsisçisi Aytən Quliyeva dövlətimizin başçısına görülən işlər barədə məlumat veriblər. Layihə barədə videoçarx nümayiş olunub.

Qeyri-neft iqtisadiyyatının inkişafı və sənayeləşmə Prezident İlham Əliyevin iqtisadiyyatın şaxələndirilməsi siyasətinin əsas istiqamətlərindəndir. Bu siyasətə uyğun olaraq ixtisaslaşmış sənaye parkları və sənaye məhəllələri yaradılır. Hazırda ölkə üzrə 7 sənaye parkı və 5 sənaye məhəlləsi mövcuddur. Sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən etibarən 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular isə ƏDV-dən və gömrük rüsumlarından azad olunurlar.

Pirallahı Sənaye Parkında bu günədək 6 müəssisə rezident kimi qeydiyyatdan keçib. Onlardan "R-Pharm" MMC və "Diamed Co" MMC artıq fəaliyyətə başlayıb. "Diamed Development Group"un dərman zavodunun bir hektar ərazisi, o cümlədən 3 min kvadratmetr qapalı sahəsi var.

"Azərbaycan İnvestisiya Şirkəti" ASC də zavodun tikintisinin maliyyələşdirilməsində iştirak edib. Ümumi dəyəri 15,6 milyon manatdan çox olan "Diamed" dərman zavodunda "Azərbaycan İnvestisiya Şirkəti"nin payı 20 faizdir. Bu müəssisəyə dövlət tərəfindən digər dəstək tədbirləri də göstərilib. Layihənin reallaşması üçün İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu tərəfindən 6 milyon manat güzəştli kredit verilib.

Prezident İlham Əliyev zavodu işə salıb. İstehsal prosesi ilə yaxından tanış olan dövlət başçısına məlumat verilib ki, zavodda müxtəlif adlarda, geniş çeşiddə venadaxili dərman məhlulları istehsal olunacaq. Müəssisənin illik istehsal gücü 20 milyon litrdir. Qeyd olunub ki, ölkəmizin bu dərmanlara olan illik tələbatı isə təxminən 15 milyon litrdir. Rusiya, Gürcüstan və Orta Asiya ölkələrinə ixrac da nəzərdə tutulur. "Diamed" dərman zavodunda 100 iş yeri yaradılıb.

# İspaniya diplomatı XİN-ə çağırıldı və qondarma rejimi dəstəkləyən paylaşım sosial mediadan silindi

İspaniya Krallığının Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin "X" ("Twitter") sosial media platformasında Azərbaycan ərazilərində Ermənistanın işğalı nəticəsində yaradılmış qondarma separatçı rejimi dəstəkləyən təxribat xarakterli paylaşımı ilə əlaqədar İspaniyanın Azərbaycandakı müvəqqəti işlər vəkili Patrisia Serrano Sançez avqustun 15-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinə (XİN) çağırılıb.



XİN-dən verilən məlumata görə, görüşdə İspaniya Krallığının Xarici İşlər, Avropa İttifaqı və Əməkdaşlıq Nazirliyinin Ermənistanın Azərbaycanın suveren ərazisində qurduğu qanunsuz separatçı rejimi təbliğ edən "X" paylaşımının qəbuledilməz olduğu və öz ərazisində separatizmlə mübarizə aparan İspaniya kimi ölkə tərəfindən belə bir addımın atılmasının anlaşılmaz olduğu vurğulanıb. Bu qeyri-konstruktiv yanaşmanın Azərbaycan-İspaniya münasibətlərinin ruhuna uyğun gəlmədiyi və Azərbaycan tərəfindən qətiyyətlə pislənildiyi diqqətə çatdırılıb.

İspaniyanın müvəqqəti işlər vəkili ölkəsinin davamlı olaraq Azərbaycan Respublikasının suverenliyini və ərazi bütövlüyünü dəstəklədiyini və bu mövqedə heç bir dəyişikliyin baş vermədiyini bildirib. Sözügedən paylaşımın texniki nöqsan olduğunu bildirən ispan diplomat Azərbaycan tərəfinin narahatlığını ifadə etməsindən dərhal sonra həmin paylaşımın silindiyini deyib.

Azərbaycan tərəfi belə halların bir daha təkrarlanmaması üçün müvafiq tədbirlərin görülməsinin vacib olduğunu bildirib.

# Şuşada daha bir kütləvi məzarlıq aşkarlanıb

### Şuşa həbsxanası ərazisində erməni vəhşiliyinin növbəti izi...

əvvəli səh. 1-də

Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyası Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Şuşada aşkarlanmış daha bir kütləvi məzarlıq haqqında "X" ("Twitter") sosial şəbəkəsində paylaşım edib.

"Mülki şəxslərin və hərbi əsirlərin saxlandığı, onlara qarşı qeyri-insani rəftar edildiyi, həmin şəxslərin işgəncələrə məruz qaldığı, öldürüldüyü Şuşa həbsxanasının yaxınlığında 4000 nəfər itkin düşmüş azərbaycanlının daha bir kütləvi məzarlığı aşkarlanıb. Ermənistan məsuliyyətdən yayınmaq üçün kütləvi məzarlıqların yeri barədə ətraflı məlumat verməkdən imtina edir", – deyə paylaşımda bildirilir.

***

Azərbaycanın insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva da Şuşada növbəti kütləvi məzarlığın aşkarlanması ilə bağlı açıqlama verib.



Açıqlamada qeyd olunur ki, "Qalıqlara keçirilən ilkin baxış zamanı həmin şəxslərin bədənləri üzərində güllələnmə izlərinin olduğu, müxtəlif küt zərbələr endirildiyi, kəsici-deşici alətlərdən istifadə edildiyi, habelə başlarının bədəndən ayrı olaraq dəfn edildiyi məlum olub. Qeyd edək ki, Ermənistan tərəfindən işğal dövründə Şuşa həbsxanası ərazisində azərbaycanlı əsir və girovların saxlanılması, onlara işgəncələr verilməsi, qeyri-insani rəftara məruz qalmaları müxtəlif şahid ifadələri ilə təsdiqlənib. Bundan öncə iyun ayında da Şuşa həbsxanası ərazisində insan qalıqları üzə çıxıb.

Bu faktlar Ermənistanın azərbaycanlılara qarşı nifrət siyasətinin, əsir və girovlarla amansız rəftarının daha bir təzahürüdür", – deyə açıqlamada bildirilir.

Qeyd olunur ki, ümumilikdə azad edilmiş ərazilərdə bu günədək çoxsaylı kütləvi məzarlıqlar üzə çıxıb, 500-ə yaxın insan qalıqları tapılıb. Ermənistan tərəfi isə kütləvi dəfn yerləri barədə məlumatları təqdim etməkdən boyun qaçırır. Buna baxmayaraq, hazırda aidiyyəti qurumlar tərəfindən Birinci Qarabağ müharibəsi zamanı itkin düşmüş 4000-ə yaxın azərbaycanlının taleyinə aydınlıq gətirilməsi məqsədilə növbəti kütləvi dəfn yerlərinin aşkarlanması və müvafiq ekspertizaların aparılması istiqamətində işlər davam etdirilir: "Bütün qeyd olunanları nəzərə alaraq, bir daha beynəlxalq təşkilatları aşkar edilən bu cür faktlara qəti reaksiya verməyə, nifrət cinayətlərinin təkrarlanmaması üçün zəruri tədbirlər görməyə, Ermənistanı itkin düşmüş azərbaycanlılar barədə məlumatların təqdim etməsinə çağırmağa dəvət edirəm".

# Mədəniyyət Nazirliyi yanında İctimai Şuranın üzvləri ilə görüş keçirilib

Xəbər verdiyimiz kimi, bu ilin iyul ayında Mədəniyyət Nazirliyi yanında İctimai Şuraya seçkilər keçirilib və Şuranın 9 nəfərdən ibarət heyəti formalaşıb.

Avqustun 11-də Mədəniyyət Nazirliyində İctimai Şuranın üzvləri ilə görüş keçirilib.

Mədəniyyət naziri Adil Kərimli çıxış edərək İctimai Şuraya seçkilərdən sonra üzvlərlə ilk toplantının təşkil olunduğunu bildirib, onlara təbriklərini çatdırıb, fəaliyyətlərində uğurlar arzulayıb.

Müasir çağırışlar kontekstində nazirliyin fəaliyyəti haqqında danışan Adil Kərimli mədəniyyətin müxtəlif sahələrinin mövcud vəziyyəti barədə fikirlərini bölüşüb. İctimai Şuranın öz fəaliyyətini nazirliyin hədəflərinə adekvat şəkildə quracağına, prosesə öz töhfəsini verəcəyinə inam ifadə olunub.



İctimai Şuranın üzvləri mədəniyyət sahəsinin inkişafı ilə bağlı fikirlərini bölüşüblər. Görüş müvafiq sahələr üzrə fikir mübadiləsi ilə davam edib.

# Bakı son illərin ən irimiqyaslı tədbirinə ev sahibliyi edəcək

2-6 oktyabr tarixlərində Bakı 74-cü Beynəlxalq Astronavtika Konqresinə ev sahibliyi edəcək. Bu, ölkəmiz üçün son illərin ən irimiqyaslı tədbiridir.

Konqres "Azərkosmos" və Beynəlxalq Astronavtika Federasiyasının tərəfdaşlığı ilə Heydər Əliyev Mərkəzində və Bakı Konqres Mərkəzində keçiriləcək. 2019-cu ilin oktyabr ayında Vaşinqtonda (ABŞ) keçirilən Beynəlxalq Astronavtika Federasiyasının Baş Assambleyasına seçkilər zamanı Bakı şəhəri bu mötəbər tədbirə ev sahibliyi etmək hüququ qazanıb.

Bu barədə məlumat verən "Azərkosmos"un İctimaiyyətlə əlaqələr və kommunikasiya qrupunun rəhbəri Fidan Behbudova qeyd edib ki, tədbirdə kosmik agentliklərin, dövlət sektorunun, investorlar və özəl kosmik şirkətlərin nümayəndələri, yerli və beynəlxalq media qurumlarının təmsilçiləri iştirak edəcəklər. Konqres çərçivəsində konfranslar, 190-dan çox texniki sessiya və sərgilər təşkil olunacaq.

Hazırda Heydər Əliyev Mərkəzi və Bakı Konqres Mərkəzi arasında 8000 kvadratmetr sahədə 74-cü Beynəlxalq Astronavtika Konqresi üçün müvəqqəti sərgi pavilyonu qurulur. Kosmos sahəsi üzrə bir çox şirkətlər Bakı konqresinə böyük maraq göstərir. Pavilyonda iştirakla bağlı artıq 50-dən çox təşkilatla müqavilə imzalanıb. İndiyədək 70-dən çox ölkədən kosmik şirkətlər və nümayəndələr konqresdə iştirak üçün qeydiyyatdan keçiblər.

"Qlobal çağırışlar və imkanlar: kosmosa şans verək" mövzusunda konqres kosmik sənayenin gələcəyini formalaşdıran yeni ideyalar və qabaqcıl həllərlə bağlı fikir mübadiləsi üçün açıq platforma olacaq.

Fidan Behbudova bildirib ki, Bakı konqresində elmi məqalələrə böyük maraq var. Ümumilikdə 95 ölkədən 3600-dək elmi məqalə Bakı Beynəlxalq Astronavtika Konqresinə qəbul olunub. Azərbaycandan gənc tədqiqatçılar, professorlara aid 214 məqalə qeydiyyatdan keçib.




Önəmli məqamlardan biri də bu il 74-cü Beynəlxalq Astronavtika Konqresi ilə bağlı viza prosedurlarının sadələşdirilməsidir. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb. Sərəncama əsasən, tədbirə qatılmaq istəyən əcnəbilər 2023-cü il sentyabrın 20-dən oktyabrın 7-dək Azərbaycan Respublikasının beynəlxalq hava limanlarında viza ala bilərlər.

# Akademik Kamal Talıbzadənin doğum günündə məzarı ziyarət olunub

Avqustun 14-də görkəmli ədəbiyyatşünas-alim, ədəbi tənqidçi, akademik Kamal Talıbzadənin (1923-2006) anadan olmasının 100 illiyi tamam olub.

Bu münasibətlə Abdulla Şaiqin Mənzil-Muzeyinin kollektivi alimin II Fəxri xiyabandakı məzarını ziyarət edib.

Kamal Talıbzadə böyük maarifçi-ədib Abdulla Şaiqin ailəsində dünyaya göz açıb. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Filologiya fakültəsini bitirib və 1945-ci ildən Azərbaycan EA-nın Nizami adına Ədəbiyyat



İnstitutunda elmi fəaliyyətə başlayıb, ömrünü ədəbiyyatşünaslıq elminin inkişafına həsr edib. Akademik Kamal Talıbzadə çoxsahəli, məhsuldar yaradıcılıq yolu keçib, onun respublikamızdan kənardakı elmi mərkəzlər və alimlərlə sıx yaradıcılıq əlaqələri olub. Alimin müxtəlif illərdə onlarla monoqrafiya və kitabı, yüzlərlə elmi məqaləsi çap edilib. "Abbas Səhhət", "Maksim Qorki və Azərbaycan", "XX əsr Azərbaycan ədəbi tənqidi", "Tənqidimiz haqqında qeydlər", "Ədəbi irs və varislər", "Sənətkarın şəxsiyyəti", "Azərbaycan ədəbi tənqidinin tarixi", "Tənqid və tənqidçilər" və s. kitabları müəllifinə geniş şöhrət qazandırıb. O, milli ədəbiyyatşünaslıqda tənqidşünaslığın müstəqil elm sahəsi kimi əsasını qoyub.

# Mədəniyyətdən diplomatiyayadək

12-18 avqust tarixlərində Naxçıvan şəhərində "Heydər Əliyev – 100" Diaspor Gənclərinin IV Yay Düşərgəsi keçirilir. Düşərgə çərçivəsində təşkil edilən növbəti panel "Müstəqillik dövründə Azərbaycanın xarici siyasət prioritetləri" mövzusuna həsr olunub.

Diasporla İş üzrə Dövlət Komitəsinin sədr müavini Elşad Əliyevin moderatorluğu ilə keçirilən paneldə Azərbaycanın sabiq xarici işlər naziri, ölkəmizin Bosniya və Herseqovinadakı səfiri Vilayət Quliyev, Azərbaycanın Avropa Şurası yanında daimi nümayəndəsi Fəxrəddin İsmayılov və Xarici İşlər Nazirliyinin Linqvistik təminat idarəsinin rəisi Rizvan Nəbiyev iştirak ediblər.

Vilayət Quliyev "Heydər Əliyevin mədəniyyət diplomatiyası", Fəxrəddin İsmayılov "Azərbaycanın Avropa Şurasına üzvlüyü Ulu öndər Heydər Əliyevin siyasi mirasıdır", Rizvan Nəbiyev isə "Postmünaqişə dövründə yeni geosiyasi reallıqlar" mövzularında çıxış ediblər.



Daha sonra debat şəklində davam edən panel zamanı düşərgə iştirakçıları xarici siyasət və geopolitika ilə bağlı çoxlu suallar ünvanlayıb, peşəkar diplomatların müxtəlif məsələlərə münasibətini öyrəniblər.

# 6-cı "Animafilm" festivalının bilet satışları başlayıb

## Əldə olunacaq vəsait qadın rejissorlara dəstək məqsədilə ianə ediləcək

Mədəniyyət Nazirliyinin dəstəyi və Azərbaycan Animasiya Assosiasiyasının təşkilatçılığı ilə 6-10 sentyabr tarixlərində Nizami Kino Mərkəzində keçiriləcək 6-cı "Animafilm" Beynəlxalq Animasiya Festivalının bilet satışları başlayıb.

Bu barədə məlumat verən festivalın direktoru, Azərbaycan Animasiya Assosiasiyasının sədri Rəşid Ağamalıyev bilet satışlarından əldə olunacaq vəsaitin qadın rejissorlara dəstək məqsədilə ianə ediləcəyini bildirib.

Qeyd edək ki, festivala 46 ölkədən ümumilikdə 174 film daxil olub. Seçim komissiyası müsabiqə proqramı üçün 13 ölkədən 39 film qəbul edib. Filmlər 2 beynəlxalq və 2 yerli kateqoriyalar üzrə yarışacaq.




"Ən yaxşı qısametrajlı animasiya filmi" kateqoriyası üzrə 11, "Uşaqlar üçün ən yaxşı qısametrajlı animasiya filmi" üzrə 10, "Ən yaxşı Azərbaycan qısametrajlı animasiya filmi" üzrə 8, "Ən yaxşı Azərbaycan tələbə qısametrajlı animasiya filmi" kateqoriyası üzrə isə 10 film proqrama salınıb.

Xatırladaq ki, ötən il keçirilən 5-ci festival "İqlim dəyişikliyi" mövzusuna həsr olunmuşdu və devizi "Bir bilet = bir ağac" idi. Festivalın bilet satışlarından əldə olunan vəsait (4119 AZN = 412 ağac) işğaldan azad olunmuş ərazilərdə ekoloji tarazlığın bərpası üçün Qarabağ Dirçəliş Fonduna ianə edilmişdi.

# Azərbaycan Dili və Ədəbiyyatı Forumuna qeydiyyat davam edir

Xəbər verdiyimiz kimi, Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyi və Azərbaycan Milli Elmlər Akademiyasının dəstəyi ilə 2-4 sentyabr tarixlərində Azərbaycan Dili və Ədəbiyyatı Forumu keçiriləcək.




Ümummilli lider Heydər Əliyevin 100 illik yubiley tədbirləri çərçivəsində təşkil olunacaq forumda Azərbaycan dili və ədəbiyyatı ilə bağlı bütün aktual məsələlər ilk dəfə belə formatda müzakirə ediləcək.

Ədəbi-elmi ictimaiyyətin, tanınmış dilçi və ədəbiyyatşünas alimlərin, yazıçı və naşirlərin iştirak edəcəyi forum sentyabrın 2-də Azərbaycan ədəbiyyatına və mədəniyyətinə görkəmli şəxsiyyətlər bəxş etmiş Şamaxı şəhərində başlayacaq, sentyabrın 3-4-də isə Bakı şəhərində davam edəcək.

Forumda mədəniyyətimizin yaşadılması, inkişafı və təbliğində Azərbaycan dili və ədəbiyyatın rolu, Azərbaycan dilinin saflığının qorunub saxlanılması, müasir ədəbi proseslər, ölkəmizdə uşaq ədəbiyyatının ideoloji mahiyyəti və müasir problemləri, milli kitab sənayesinin hazırkı vəziyyəti və bu sahəyə dövlət dəstəyi, uşaq və yeniyetmələr arasında mütaliənin təbliği, teatr və kinonun inkişafında ədəbiyyat faktoru və digər istiqamətlərdə diskussiyalar olacaq.

Mütəxəssislərin forum çərçivəsindəki fikir və təklifləri ümumiləşdirilərək "Azərbaycan mədəniyyəti – 2040" Dövlət Proqramında öz əksini tapacaq.

Azərbaycan Dili və Ədəbiyyatı Forumunda iştirak etmək istəyən şəxslər 25 avqust 2023-cü il tarixinədək Mədəniyyət Nazirliyinin "culture.gov.az" rəsmi internet saytında yerləşdirilən onlayn müraciət forması vasitəsilə qeydiyyatdan keçə bilərlər.

Xatırladaq ki, bu ilin aprel ayında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ölkəmizdə ilk dəfə Teatr Forumu və Kino Forumu keçirilib. Hər iki tədbirdə mütəxəssislərin, aidiyyəti qurum və yaradıcılıq təşkilatları təmsilçilərinin iştirakı ilə geniş diskussiyalar aparılıb, sahələr üzrə mövcud problemlər və onların həlli yollarına dair fikir və təkliflər səslənib.

# Azərbaycan-Gürcüstan: muzey sahəsində əlaqələr genişlənir

Azərbaycan Milli İncəsənət Muzeyi və Gürcüstan Milli Muzeyi arasında əməkdaşlıq haqqında memorandum imzalanıb.



Muzeydən bildirilib ki, iki ölkə arasında mədəni əlaqələrin inkişafına töhfə vermək məqsədilə imzalanan sənəddə tərəflər bir neçə istiqamətdə səmərəli əməkdaşlıq əlaqələrinin qurulması üçün müvafiq şəraitin yaradılması haqqında razılığa gəliblər.

Memorandum sərgi mübadiləsi, muzey işi ilə bağlı konfransların, seminarların, treninqlərin keçirilməsi, daşınar mədəniyyət sərvətlərinin mühafizəsi, konservasiyası və bərpası, elektron kataloqların yaradılması ilə bağlı təcrübə mübadiləsi, beynəlxalq proqramlar və layihələr çərçivəsində əməkdaşlıq və s. kimi məsələləri əhatə edir.

# Sufizmin Nizami və Ruminin əsərlərinə təsiri

Gəncə Dövlət Tarix-Mədəniyyət Qoruğunun (DTMQ) təşəbbüsü ilə "Heydər Əliyev İli" çərçivəsində "Sufizmin Nizami Gəncəvi və Mövlanə Cəlaləddin Ruminin əsərlərinə təsiri" mövzusunda onlayn beynəlxalq konfrans keçirilib.

Nizami Gəncəvi Məqbərə Kompleksinin direktoru Gülnarə İsmayılovanın moderatorluğu ilə keçən konfransda AMEA-nın Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutunun elmi katibi dosent Əzizağa Nəcəfzadə də çıxış edib.

Alim "Böyük humanist sənətkar" adlı məruzəsində humanizmin əsas müddəalarının Nizami irsində əks olunduğunu diqqətə çatdırıb. Bildirib ki, dünya humanizm məktəbinin tam mənzərəsinin aydın təsəvvür edilməsi üçün Nizami Gəncəvi kimi bədii söz ustadının həyata, insana, cəmiyyətə baxışlarının öyrənilməsi zəruridir.

Konfransda Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidməti Mədəni irsin qorunması şöbəsinin müdiri Səbuhi Bəşirov, Türkiyənin Gəncə şəhərindəki baş konsulu Rəcəb Öztop, Səlcuq Universitetinin fars dili və ədəbiyyat müəllimi professor Ali Temizel, Atatürk Universiteti fars dili və ədəbiyyat bölümünün rəhbəri professor Nimet Yıldırım iki dahi şairin ortaq türk mədəniyyətinin, ədəbiyyatının təşəkkülündə xidmətlərindən bəhs ediblər.

Sonda Gəncə DTMQ-nin direktoru vəzifəsini icra edən Vüsal Alıyev iştirakçılara təşəkkürünü bildirib.

# Cənub bölgəsində arxeoloji monitorinq aparılıb

AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun "Arxeoloji abidələrin toplusu" sektorunun əməkdaşları Azərbaycanın cənub bölgəsində monitorinq aparıblar.

Yardımlı, Astara, Lerik və digər rayonlarda qoç daşlar və insan başı formalı məzar daşlarına baxış keçirilib. Baxış zamanı məlum olub ki, tapıntılar XV- XVII əsrlərə, Ağqoyunlu və Səfəvilər dövlətləri dövrünə aiddir.

Monitorinq zamanı Astara rayonunun Alaşa kəndində Orta əsrlərə aid Əlişah qalasının qalıqlarına da baxış keçirilib. İnstitutun əməkdaşı, tarix üzrə fəlsəfə doktoru Mikayıl Mustafayev el arasında "Divəkə" adlandırılan qalanın vaxtilə sovet ordusunun hərbçiləri tərəfindən keçirilən təlimlər zamanı dağıntılara məruz qaldığını bildirib.

Monitorinq qrupunun üzvləri yaxın vaxtlarda burada tədqiqat işlərinə başlamağı nəzərdə tutub.

# Türkiyənin media nümayəndələri Qarabağda və Şərqi Zəngəzurda








əvvəli səh. 1-də

Türkiyəli jurnalistlərin səfərinin növbəti ünvanı Zəngilan rayonunun yenidən qurulan Ağalı kəndi olub. Onları Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Prezidentin Xüsusi nümayəndəliyinin əməkdaşları qarşılayıblar.

Media nümayəndələrinə Ağalı kəndi barədə ətraflı məlumat verilib. Bildirilib ki, 27 il işğal altında olan Zəngilan rayonu da ermənilər tərəfindən tamamilə dağıdılıb, bütün infrastruktur məhv edilib. 2020-ci ildə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusunun parlaq Qələbəsindən sonra işğaldan azad edilən bütün ərazilərdə olduğu kimi, Zəngilanda da genişmiqyaslı tikinti-quruculuq işlərinə start verilib. Böyük Qayıdış proqramı üzrə ilk olaraq 2022-ci ilin yayında Ağalı kəndinin sakinləri doğma yurdlarına qayıdıblar.

Bildirilib ki, bir neçə gün əvvəl Ağalı kəndinə Böyük Qayıdışın növbəti mərhələsi həyata keçirilib və 106 nəfərdən ibarət daha 22 ailə kəndə köçürülüb. Hazırda Ağalıda ümumilikdə 526 nəfərdən ibarət 108 ailə məskunlaşıb. Kənd sakinləri müxtəlif dövlət qurumlarında, ictimai iaşə obyektlərində, tikinti, tikiş sexi və digər yerlərdə çalışmaq imkanı əldə ediblər. Köçürülmüş əhali üçün bütün infrastruktur – dövlət xidmətləri mərkəzi, məktəb, bağça, bank, poçt, ictimai iaşə obyektləri və sair imkanlar yaradılıb.

Türkiyəli jurnalistlərə Zəngilan ərazisindən keçən Horadiz-Ağbənd dəmir yolunun, Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd avtomobil yolunun tikintisinin sürətlə davam etdirilməsi barədə də məlumat verilib. Zəngilanın beynəlxalq nəqliyyat-logistika mərkəzinə çevrilməsi məqsədilə 2021-ci ilin aprelində tikintisinə başlanılan Zəngilan Beynəlxalq Hava Limanının Türkiyə və Azərbaycan prezidentlərinin birgə iştirakı ilə istifadəyə verildiyi xatırlanıb.

Qeyd olunub ki, Zəngilanın yenidən qurulması işində qarşıda duran vacib məsələlərdən biri də işğal dövründə məhv edilən ekosistemin bərpasıdır. Bəsitçay hövzəsi boyunca mövcud olmuş təbii çinar meşəsi Avropanın ən böyük çinar meşəsi olub. Lakin Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı işğalçılıq siyasəti nəticəsində çinar meşələri ekosidə məruz qalıb. Zəngilanın ekosisteminin bərpası üçün 20 min çinar ağacı və 1000 kiloqrama yaxın palıd toxumu əkilib. Zəngilan rayonunda həm də dayanıqlı kənd təsərrüfatının, turizm sahəsinin, xüsusilə ekoturizmin və kənd turizminin inkişafına təkan verə biləcək sahələrin yaradılması da nəzərdə tutulub. Bütün bu işlər burada yaşayan əhalinin məşğulluğunun təmin olunmasına mühüm töhfə verəcək.

Media nümayəndələri Ağalı kəndinin ərazisini gəzib, görülən işlərlə yaxından tanış olublar.

***

İşğaldan azad olunan ərazilərdə səfərdə olan Türkiyənin media nümayəndələri Zəngilandan sonra Laçına gəliblər.

Əvvəlcə onlar Laçın dövlət-sərhəd buraxılış məntəqəsinə baş çəkiblər. Ermənilərin dövlət sərhəd-buraxılış məntəqəsindən keçidini izləyən qonaqlar daha sonra Laçın şəhərinə yola düşüblər.

Qeyd edək ki, türkiyəli jurnalistlər ermənilərin Laçın dövlət sərhəd-buraxılış məntəqəsindən keçidi zamanı bütün prosedurları izləyiblər. Keçid məntəqəsində ermənilərin qaydalara uyğun olaraq yoxlanıldıqdan sonra keçidi təmin edilib. Gün ərzində 20 nəfər Ermənistan istiqamətinə keçib.

Həmçinin onlar Ermənistan tərəfində yük maşınlarının dayandırılmasını və bununla da Ermənistanın siyasi şou yaratmaqla təxribata əl atmasının da şahidi olublar.

Laçın şəhərinə gələn jurnalistlərə burada işğalın nəticələri, aparılan quruculuq işləri barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, Böyük Qayıdış proqramına uyğun olaraq Laçın sakinləri də 2023-cü ilin may ayından başlayaraq doğma şəhərə qayıdırlar. Qonaqların diqqətinə çatdırılıb ki, bir neçə gün əvvəl daha 23 ailə Laçında məskunlaşıb. Hazırda Laçın şəhərinə ümumilikdə 203 ailə olmaqla 793 nəfər məskunlaşıb və köçürülən ailələr üçün bütün infrastruktur şəraiti yaradılıb.

Media nümayəndələri Laçın şəhəri ərazisində gəzintiyə çıxaraq burada tikinti-quruculuq işləri sayəsində yaradılan şəraitlə tanış olublar.

## Laçın rayonunun Zabux kəndinə də köç başlayacaq...

Yaxın günlərdə Laçın rayonunun Zabux kəndinə də məcburi köçkünlərin qayıdışı başlayacaq. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi Zabux kəndinə birinci mərhələdə köçürüləcək ailələr arasında püşkatma keçirib.

Püşkatmada 20 ailə (88 nəfər) iştirak edib. Ailə tərkibinə uyğun olaraq onlardan 4-ü ikiotaqlı, 4-ü üçotaqlı, 8-i dördotaqlı, 4-ü isə beşotaqlı mənzil ilə təmin olunub. Həmin ailələr indiyədək Bakı və Sumqayıt şəhərlərində, Abşeron rayonu ərazisində müvəqqəti məskunlaşma yerlərində yaşayıblar.

Laçın rayonunun Zabux kəndinin layihələndirilməsi və tikintisi üzrə sifarişçi Məcburi Köçkünlərin Sosial İnkişaf Fondudur. Kənddə birinci mərhələdə beton zirzəmi-sığınacağı olan 223 birmərtəbəli fərdi yaşayış evi inşa edilir. Bundan başqa, kənddə uşaq bağçası, inzibati bina, tibb məntəqəsi və digər obyektlər də tikilir.

## Milli rejissorluq sənətimizin korifeyi

Masallı rayon Mərkəzi Kitabxanasında görkəmli teatr rejissoru, Xalq artisti Tofiq Kazımovun (1923-1980) 100 illiyinə həsr edilmiş tədbir keçirilib.

Kitabxananın əməkdaşları Şəmsurə Nəsirova və Rasif Dadaşov sənətkarın həyatı və yaradıcılıq fəaliyyətindən, Azərbaycan teatrının, rejissor sənətinin inkişafındakı xidmətlərindən söz açıblar.

Qeyd edilib ki, 1964-cü ildən 1980-ci ilədək Azərbaycan Dövlət Akademik Dram Teatrının baş rejissoru vəzifəsində çalışan Tofiq Kazımov bu səhnədə yaddaqalan tamaşalar hazırlamaqla yanaşı, gənclərin teatra cəlb olunmasında böyük xidmətlər göstərib. Onun quruluş verdiyi V.Şekspirin "Hamlet", İ.Əfəndiyevin "Sən həmişə mənimləsən", "Unuda bilmirəm", "Məhv olmuş gündəliklər", C.Məmmədquluzadənin "Ölülər", C.Cabbarlının "Aydın", M.S.Ordubadinin "Qılınc və qələm", Ə.Haqverdiyevin "Pəri cadu" və digər səhnə əsərləri Azərbaycan teatr salnaməsində xüsusi yer tutur.

## "Xəzərin sahilində" – Sumqayıtda konsert və plener

Sumqayıtda "Xəzərin sahilində" adlı layihəyə başlanılıb. Layihə çərçivəsində avqustun 13-də Sumqayıt Şəhər İcra Hakimiyyəti və Abşeron-Xızı RMİ-nin birgə təşkilatçılığı ilə Sumqayıt bulvarında şəhərin sakinləri və qonaqları üçün konsert proqramı və gənc rəssamların pleneri keçirilib.

Konsertdə N.Nərimanov adına Sumqayıt şəhər Mədəniyyət Mərkəzinin özfəaliyyət kollektivi olan "Endorfin" rok musiqi qrupu rəngarəng proqramla çıxış edib. Sumqayıtlı rəssamlar musiqi sədaları altında təcrübə mübadiləsi edərək rəsm əsərləri çəkiblər.

Qeyd edək ki, "Xəzərin sahilində" layihəsi sentyabrın 3-dək davam edəcək.

# Gənclik dünyanı sülhə səsləyir

12 avqust Beynəlxalq Gənclər Günüdür. Əlamətdar gün 1998-ci ilin 8-12 avqust tarixlərində Portuqaliyanın paytaxtı Lissabon şəhərində dünya ölkələri gənclərlə iş üzrə nazirlərinin iştirakı ilə keçirilən beynəlxalq konfransda təsis olunub. Beynəlxalq Gənclər Günü münasibətilə bölgələrdə bir sıra tədbirlər keçirilib.



Lənkəran-Astara RMİ və Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Lənkəran şəhər Mərkəzi Kitabxanasında "Gənclik parlaq gələcəyimizdir!" mövzusunda tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, ölkəmizdə gənclərə yüksək diqqət və qayğı göstərilir, uğurlu dövlət gənclər siyasəti həyata keçirilir. Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu gənclər siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə müasir dövrün tələblərinə uyğun davam etdirilməsi gənclərin hərtərəfli fəaliyyətinə geniş imkanlar yaradıb.

***

Qax rayon Heydər Əliyev Mərkəzi, S.Vurğun adına rayon Mədəniyyət Mərkəzi, 1 nömrəli şəhər Mədəniyyət evi və rayon MKS-nin 2 və 4 saylı şəhər kitabxanalarının birgə təşkilatçılığı ilə "Gənclik dünyanı sülhə səsləyir!" adlı konsert proqramı keçirilib. Çıxışlarda ölkəmizdə gənclər siyasətinin əsasını qoymuş Ulu öndər Heydər Əliyevin bu sahədə göstərdiyi misilsiz xidmətlərindən bəhs olunub. Bədii hissədə incəsənət ustaları və müxtəlif rəqs qrupları tərəfindən konsert proqramı təqdim edilib.

Oğuz Rayon Tarix-Diyarşünaslıq Muzeyində "Heydər Əliyev və müasir Azərbaycan gəncliyi" adlı tədbir təşkil edilib. Əsası Ulu öndər tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirildiyi diqqətə çatdırılıb. Sonda "Heydər Əliyev və gənclik" adlı film nümayiş olunub.



***



Ağcabədi rayon Heydər Əliyev Mərkəzinin, Qarabağ Regional Gənclər və İdman İdarəsinin Ağcabədi rayonu üzrə sektorunun təşkilatçılığı ilə Beynəlxalq Gənclər Gününə həsr olunmuş tədbir keçirilib. Ağcabədi Olimpiya İdman Kompleksində təşkil edilən tədbirdə bildirilib ki, Ulu öndərin təməlini qoyduğu gənclər siyasəti müstəqil Azərbaycan dövlətinin ən mühüm fəaliyyət istiqamətlərindən biridir.

**Hazırladı: N.Məmmədli**

# Qəhrəmanlar unudulmur





Yevlax rayonunun Gülövşə kəndində şəhid baş çavuş Təbriz Rəhimovun anım mərasimi keçirilib. Çıxış edənlər müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı Qələbənin tarixi əhəmiyyətindən danışıblar.

Bildirilib ki, Təbriz Rəhimov 44 günlük Vətən müharibəsi zamanı igidliklər göstərib. Müharibədən sonra müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu kimi xidmətini davam etdirib. O, Ermənistan ordusunun 2022-ci ilin 12-13 sentyabr tarixlərində Azərbaycanın Qərb istiqamətində sərhəd boyu törətdiyi təxribatlarının qarşısının alınması zamanı Zəngilan rayonu ərazisində qəhrəmancasına şəhid olub. Ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni və "Vətən uğrunda" medalı ilə təltif edilib. Şəhidin adı yaşadığı küçəyə verilib.

Çıxışlardan sonra şəhidin xatirəsinə inşa edilmiş abidə-bulaq kompleksinin açılışı olub. Gülövşə kənd tam orta məktəbinin şagirdləri və Yevlax şəhər Mədəniyyət Mərkəzinin əməkdaşları tərəfindən hazırlanmış kompozisiya nümayiş etdirilib.

***

Xocavənd rayon Qaradağlı kəndinin şəhid qəhrəmanı Elzamin Tağıyev doğum günündə Xocavənd qəsəbəsindəki (Beyləqan rayonu) Şəhidlər məzarlığında anılıb.

Mərasim iştirakçıları əvvəlcə şəhidlərin məzarları önünə qərənfillər düzüb, əziz xatirəsinə ehtiramlarını bildiriblər.

Bildirilib ki, Elzamin Tağıyev Vətən müharibəsinin ilk günündən Füzuli istiqamətində döyüşlərə qatılıb, oktyabrın 11-də yaralanıb, müalicə aldıqdan sonra yenidən döyüşlərə yollanıb. Noyabrın 9-da Şuşa uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıb. Ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", Qubadlı, Füzuli və Şuşanın azad olunmasına görə medalları ilə təltif olunub.

***

Astara rayon Mərkəzi Kitabxanasının Uşaq şöbəsində Azərbaycanın Milli Qəhrəmanları Aslan Atakişiyev və Fəxrəddin Cəbrayılova həsr olunan "Qəhrəmanlar unudulmur" mövzusunda tədbir keçirilib. Əvvəlcə Ulu öndər Heydər Əliyevin və şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Çıxışlarda Milli Qəhrəmanların döyüş yolu haqqında məlumat verilib. Sonra şagirdlər vətənpərvərlik ruhlu şeirlər söyləyiblər, mövzu ilə bağlı sərgiyə baxış olub.

***

"Tək millət, tək ürək" Beynəlxalq Humanitar Platforması çərçivəsində Müdafiə Nazirliyi, İsmayıllı Rayon İcra Hakimiyyəti və Dağlıq Şirvan RMİ-nin dəstəyi ilə şəhid ailələri üçün tədbir təşkil olunub.



İsmayıllı rayonundakı Heydər Əliyev adına parkda gerçəkləşən tədbirdə tanınmış incəsənət ustalarının ifasında konsert proqramı təqdim edilib. Tədbirdə həmçinin şəhid övladları üçün müxtəlif kompozisiyalar və İsmayıllı rayon Heydər Əliyev adına Mədəniyyət Mərkəzinin hazırladığı kukla tamaşası nümayiş etdirilib.

***

1918-ci ildə ermənilərin Azərbaycanın Naxçıvan bölgəsini ələ keçirmək üçün başlatdıqları qəsbkarlıq hərəkətlərinin qarşısının alınması məqsədilə Osmanlı ordusunun generalı Kazım Qarabəkir paşanın başçılığı ilə ordu birləşmələri bu qədim diyarın müdafiəsi üçün gəldilər. Nəticədə erməni daşnakların arzusu ürəklərində qaldı. Naxçıvan Azərbaycanın tərkib hissəsi kimi varlığını qoruyub saxladı. Həmin illərdə Anadoludan gələn türkiyəli qardaşlarımızın sırasından da şəhidlər olub. O şəhidlərdən biri də qəhrəman zabit Həsən Bəşir Türkoğludur. Onun şəhadətindən bu il 105 il ötür.

Ordubad rayonunun Anaqut kəndində şəhidin xatirəsini əbədiləşdirmək məqsədilə bulaq-abidə kompleksi inşa edilib. Abidənin açılışında Prezidentin NMR-də səlahiyyətli nümayəndəsinin müavini Samir Seyidəhmədli, Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Rəhimli və Türkiyənin NMR-dəki baş konsulu Asip Kaya çıxış ediblər.



Bildirilib ki, H.B.Türkoğlu 1918-ci ildə Ordubad rayonunun Dırnıs kəndi uğrunda gedən döyüşlərdə şəhid olub və bu kənddə dəfn edilib.

Tədbirdə şəhidlərin xatirəsinə həsr olunmuş şeirlər səsləndirilib. Sonda türkiyəli zabitin və Dırnıs kənd şəhidlərinin məzarları ziyarət edilib.

№60 (2029)
16 avqust 2023
www.medeniyyet.az



# Gənc kinematoqrafçılar sahənin inkişafı ilə bağlı nə düşünürlər?

## Mədəniyyət Nazirliyindəki görüşdə fikir və təkliflər dinlənilib



Avqustun 14-də Mədəniyyət Nazirliyində gənc kinematoqrafçılarla görüş keçirilib.

Mədəniyyət naziri Adil Kərimli görüş iştirakçılarını salamlayıb, bu il 125 yaşı qeyd olunan Azərbaycan kinosunun zəngin ənənələrindən, bu sahənin inkişafına öz töhfəsini vermiş görkəmli sənətkarlardan bəhs edib.

Dövlət tərəfindən mədəniyyətin digər sahələri kimi, kinematoqrafiya sahəsinə də diqqət və qayğı göstərildiyini deyən nazir ölkə başçısının bununla bağlı müvafiq fərman və sərəncamlar imzaladığını diqqətə çatdırıb. Bildirilib ki, Prezident İlham Əliyevin fərmanı ilə Mədəniyyət Nazirliyi yanında Azərbaycan Respublikası Kino Agentliyinin yaradılması da bu sahəyə yüksək qayğının daha bir təzahürüdür.

Adil Kərimli bu ilin aprel ayında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə gerçəkləşən ilk Kino Forumundan ötən dövr ərzində görülən işlər barədə də məlumat verib, yaradıcı sənayenin inkişafının əhəmiyyətini vurğulayıb.

Görüşdə gənc kinematoqrafçıların fikir və təklifləri dinlənilib, kino sahəsinin inkişaf məsələlərinə dair geniş müzakirə aparılıb. Qeyd olunub ki, gələcəkdə belə platformaların, görüşlərin mütəmadi keçirilməsi, kinematoqrafiyanın müxtəlif sahələrində yaradıcı əməklə məşğul olan bütün gənclərin əhatə olunması önəmlidir.

# Yubilyar sənətkarlarla görüşlər keçirilib

Müasir Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Sakit Məmmədov bu günlərdə (5 avqust) 65 yaşını qeyd edib. Bu münasibətlə Mədəniyyət Nazirliyində rəssamla görüş keçirilib.

Nazir Adil Kərimli sənətkarı təbrik edib, ona möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb. Xalq rəssamına Mədəniyyət Nazirliyinin Fəxri diplomu təqdim olunub.

Qeyd olunub ki, Sakit Məmmədov zəngin yaradıcılığı ilə Azərbaycan rəssamlıq sənətinin inkişafına, dünyada tanınmasına mühüm töhfələr verib, sənətdə özünəməxsus üslubunu, dəst-xəttini yaradıb. Onun beynəlxalq incəsənət festivallarının qalibi olması, müxtəlif ölkələrdə təltiflərə layiq görülməsi, əsərlərinin mötəbər şəxsi kolleksiyalarda, muzey və qalereyalarda saxlanılması eyni zamanda Azərbaycan rəssamlığının nailiyyətidir. Xalq rəssamı sənətin sirlərini gənclərə də həvəslə öyrədir.

Sakit Məmmədov fəaliyyətinə və yaradıcılığına göstərilən diqqətə görə minnətdarlığını ifadə edib.

Görüşdə milli rəssamlıq sənətinin inkişafı və təbliği ilə bağlı fikir mübadiləsi aparılıb.

***

Avqustun 8-də Azərbaycan kinosunun korifey sənətkarlarından biri, Xalq artisti Rasim Balayevin 75 yaşı tamam oldu.

Sənətkarın zəngin yaradıcılıq fəaliyyəti dövlətimiz tərəfindən yüksək qiymətləndirilib. Prezident İlham Əliyevin 7 avqust 2023-cü il tarixli sərəncamı ilə görkəmli aktyorun "İstiqlal" ordeni ilə təltif edilməsi bu diqqət və qayğının daha bir nümunəsidir.

Rasim Balayevin 75 illiyi münasibətilə Mədəniyyət Nazirliyində sənətkarla görüş keçirilib. Nazir Adil Kərimli Rasim Balayevi təbrik edib, möhkəm cansağlığı, yeni yaradıcılıq uğurları arzulayıb. Sənətkara nazirliyin Fəxri diplomunu təqdim edib.

Aktyorun Azərbaycan kinematoqrafiyasına töhfələrini yüksək qiymətləndirən nazir onun canlandırdığı obrazlarla tamaşaçıların dərin sevgisini qazandığını vurğulayıb. Qeyd olunub ki, Rasim Balayevin çəkildiyi bir çox ekran əsərləri milli kinomuzun "qızıl fondu"nu təşkil edir.

Rasim Balayev yaradıcılığına göstərilən diqqətə görə minnətdarlığını ifadə edib, bundan sonra da kino sənətinin inkişafına töhfə verməyə çalışacağını deyib.

***

Azərbaycan estrada sənətinin görkəmli nümayəndəsi, Prezidentin fərdi təqaüdçüsü Akif İslamzadə də avqustun 8-də 75 yaşını tamamlayıb. Mədəniyyət Nazirliyində yubilyarla görüş keçirilib.

Nazir Adil Kərimli Akif İslamzadəni təbrik edib, ona möhkəm cansağlığı və uzun ömür arzulayıb. Sənətkara Mədəniyyət Nazirliyinin Fəxri diplomu təqdim olunub.

Qeyd edilib ki, Akif İslamzadə ifa üslubu ilə Azərbaycan estrada sənətinin inkişafına, ifaçılıq məktəbinin zənginləşməsinə töhfələr verib. Musiqiçi ailəsində dünyaya gələn müğənni milli musiqi ənənələrimizə sadiqliyi ilə hər zaman nümunə olub. Estrada ifaçılıq sənəti ilə bərabər, xalq mahnılarımızın da ifasında fərdi üslubunu, dəst-xəttini yaradan müğənni xalqın böyük sevgisini qazanıb. Mahnı ifaçılığında özünəməxsus yeri olan Akif İslamzadənin səsində lentə alınan nəğmələr bu gün də sevə-sevə dinlənilir, müğənnilərin repertuarında yer alır.

Akif İslamzadə fəaliyyətinə göstərilən diqqətə görə minnətdarlığını ifadə edib. Görüşdə musiqi sənətimizin inkişafı və klassik estrada ənənələrinin yaşadılması ilə bağlı fikir mübadiləsi aparılıb.

# Ulu öndərin 100 illiyi münasibətilə İtaliyanın San-Remo şəhərində konsert təşkil edilib

İtaliyanın San-Remo şəhərində müasir Azərbaycan dövlətinin qurucusu, Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə "O Patro Mia" ("Ey mənim atam") adlı konsert keçirilib.

Diasporla İş üzrə Dövlət Komitəsindən bildiriblər ki, İtaliyada yaşayan azərbaycanlı bəstəkar Kəmalə Əlizadə və onun həyat yoldaşı, bəstəkar-musiqiçi Stefano Muskaritolonun təşkilatçılığı ilə gerçəkləşən tədbirdə yerli ictimaiyyətin nümayəndələri, media mənsubları iştirak ediblər.

Dövlət Komitəsinin nümayəndəsi Leyla Həmzəyeva konsertdən əvvəl çıxış edərək cari ilin Azərbaycanda "Heydər Əliyev İli" elan olunduğu, bununla bağlı müxtəlif ölkələrdə dahi şəxsiyyətə həsr olunmuş tədbirlərin keçirildiyi diqqətə çatdırılıb. Konsertin təşkil olunmasına görə İtaliyadakı Azərbaycan diasporuna minnətdarlıq ifadə edilib. Soydaşlarımızın dost İtaliyanın ictimai-siyasi, sosial-iqtisadi və humanitar sahələrinə töhfələr verməsi yüksək qiymətləndirilib.

Konsert proqramında solistlər – Kəmalə Əlizadə (fortepiano), Stefano Muskaritolo (gitara), Tatyana Anisimova (soprano) və Eduard Lyaşuk (kontrabas) orkestrin müşayiəti ilə Azərbaycan, italyan və alman bəstəkarlarının əsərlərini, eləcə də "Ay Laçın", "Gözəlim sənsən" xalq mahnılarını ifa ediblər. Sənətçiləri maestro Massimo Dal Pranın dirijorluğu ilə Bordiqera şəhər Simfonik Orkestri müşayiət edib.




Qeyd edək ki, Kəmalə Əlizadə həyat yoldaşı ilə birlikdə brifinq keçirib, jurnalistlərin suallarını cavablandırıblar.

Bakı Musiqi Akademiyasında görkəmli bəstəkar Arif Məlikovun sinfini bitirmiş K.Əlizadə təhsilini İtaliyada (İstituto Superiore di Studi Musicali) davam etdirib. Bəstəkar həyat yoldaşı ilə birlikdə xaricdə Azərbaycanla bağlı layihələr həyata keçirir.

# AKİ bu il də "DokuBaku" festivalına dəstək verəcək

Azərbaycan Kinematoqrafçılar İttifaqı (AKİ) "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı ilə əməkdaşlığı davam etdirir. İttifaq bu il də festivala maliyyə və informasiya dəstəyi verəcək.

DOKU BAKU
INTERNATIONAL DOCUMENTARY FILM FESTIVAL

VII "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı sentyabrın 26-dan oktyabrın 1-dək keçiriləcək. Mövzusu "KosmoDarvinizm: Dolça əsri" olan builki festivalın məqsədi sənədli film yaradıcılarının mövcud dəyişikliklər haqqında nə düşündüklərini öyrənmək və bəşəriyyətin dövrümüzün çağırışı olan rəqəmsallaşma, həyatın çılğın tempi, texnologiyaları cəlb etmədən insanların uğur qazanmaq cəhdlərinin öhdəsindən daha yaxşı gəlmək yollarına dair kinematoqrafik araşdırmaları diqqətə çatdırmaqdır.

Festival "Ən yaxşı beynəlxalq tammetrajlı sənədli film", "Ən yaxşı beynəlxalq qısametrajlı sənədli film", "Uşaqlar üçün ən yaxşı sənədli film (DokuKids)", "DokuDarvin: Ən yaxşı yerli sənədli film" və "Əsas müsabiqəyə daxil olmayan filmlər" nominasiyaları üzrə keçiriləcək.

AKİ bir neçə ildir "DokuBaku" festivalının tərəfdaşıdır və bu ənənəni davam etdirmək niyyətindədir.

"DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı 2017-ci ildə bir qrup kino peşəkarı və həvəskarı tərəfindən könüllü əsaslarla təşkil olunub. Festivalın təsisçiləri azərbaycanlı rejissor İmam Həsənov və çexiyalı rejissor, prodüser Veronika Yanatkovadır.

# Mən tək ... "Kontrabas"da...

## Şövqi Hüseynov Gənc Tamaşaçılar Teatrını növbəti festivalda təmsil edir

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrı avqustun 14-dən 20-dək Rusiyanın Vladimir şəhərində keçirilən III "Teatr. Birlik məkanı" beynəlxalq festivalına qatılıb.



Teatrın mətbuat xidmətindən bildirilib ki, festivalda Əməkdar artist Şövqi Hüseynovun iştirakı ilə "Kontrabas" monotamaşası nümayiş olunacaq.

Alman yazıçısı Patrik Zuskindin eyniadlı pyesi əsasında hazırlanan tamaşaya mərhum rejissor, Xalq artisti İrina Perlova quruluş verib.

Ensiklopedik biliklərə malik qəhrəman həyatda çox sadə mövqe sahibidir. Opera ulduzuna vurulan bu şəxs həmin xanıma etiraf etmək istəyir ki, sakit otaqlarda belə onun səsini eşidir, məşhur ariyaları ifa edən gözəl səsi ilə dialoqa girir. Bu zaman özü-özü üçün qısqanclıq səhnəsi, teatr qalmaqalı yaradır ki, bəlkə bunun nəticəsində məşhur ulduzla ünsiyyət qurmaq imkanı oldu. Sarkazm və yumoristik məqamlarla zəngin olan tamaşada qəhrəmanın yeganə ünsiyyət vasitəsi isə kontrabasdır...

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələrlə yazılıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (54)

### 1995-ci il 15 aprel

Prezident Heydər Əliyev Xalq şairləri Bəxtiyar Vahabzadə, Məmməd Araz və Xəlil Rzanın (ölümündən sonra) "İstiqlal" ordeni ilə təltif olunması haqqında fərman imzalayıb.

Heydər Əliyev həmin gün Xalq şairi Bəxtiyar Vahabzadəni qəbul edib.

### 1995-ci il 16 aprel

Heydər Əliyev M.Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasında Xalq şairi Məmməd Arazın "Azərbaycan – dünyam mənim" adlı yaradıcılıq gecəsində iştirak edib. O, tədbirdən sonra ziyalılarla görüşdə çıxış edib.

*"Öz əsərləri ilə yüksək bədii sənətkarlıq və əsl vətəndaşlıq qeyrəti aşılayan, doğma Vətəni sonsuz məhəbbətlə sevən, qüdrətli qələmi ilə xalqımıza sədaqətlə xidmət edən Məmməd Arazın poeziyasını Azərbaycan torpağından, tariximizdən, el-obadan ayrı təsəvvür etmək çətindir... Bu gün biz bir daha Məmməd Arazın Azərbaycan xalqının mədəniyyətinə, ədəbiyyatına verdiyi töhfələri gördük, eşitdik...*

*Dünən mən Bəxtiyar Vahabzadə ilə görüşüb söhbət edirdim. Son bir neçə ay ərzində mən çox fikirləşirəm ki, bizim ziyalıların, mədəniyyət xadimlərinin, elm xadimlərinin cəmiyyətdə hörmətini qaldırmaq lazımdır. Çünki xalq həmişə öz ziyalıları, öz mədəniyyəti, öz elmi ilə tanınır... Son illər bizim mədəniyyətimizə, elmimizə, şeirə, ədəbiyyata diqqət azalıb. Bilirsiniz, bu axşam bizim üçün nə qədər böyük bir mənəviyyat axşamı oldu...*

*Belə şeir gecələri, ədəbiyyat gecələri, belə görüşlər mənə elə gəlir ki, xalqımızın həyatının, tarixinin bu dövründə xüsusilə lazımdır. Çünki mənəviyyat bəzi yerlərdə çox tapdalanıb, unudulubdur, əxlaq pozulubdur. Bir tərəfdən bunun obyektiv səbəbləri var – həyat çətindir, ağırdır, müharibə şəraitində yaşayırıq. İkinci tərəfdən də cürbəcür ictimai-siyasi proseslər, iqtisadi çətinliklər buna müəyyən şərait yaradıbdır. Ancaq biz bunların qarşısında təslim ola bilmərik, geriyə çəkilə bilmərik... Buna görə də mən hesab edirəm ki, belə görüşlərə, belə gecələrin keçirilməsinə böyük ehtiyac var və Məmməd Araz poeziyasının bugünkü məclisi mənə elə gəlir ki, Azərbaycanın mədəniyyət tarixində, mədəni həyatında, ictimai həyatında böyük, görkəmli bir hadisədir.*

*...Mən şeirə də, mahnıya da çox hissiyyatlı adamam. O misraları, o sözləri, o musiqini həyəcansız dinləyə bilmirdim. Bizim mədəniyyətimizin nə qədər dərinliyi var, yüksəkliyi var! Biz nə qədər zənginik! Biz özümüz-özümüzü çox vaxt qiymətləndirə bilmirik. Xalqımızın zəngin mədəniyyəti keçmişdə də olub, bu gün də var, ümidvaram ki, gələcəkdə də olacaqdır.*

*Bildiyiniz kimi, müstəqil Azərbaycanın ən yüksək ordeni "İstiqlal" ordenidir. İndiyə qədər bu ordenlə heç kəs təltif olunmayıbdır. Dünən mən fərman verərək Bəxtiyar Vahabzadəni, Məmməd Arazı, mərhum Xəlil Rzanı "İstiqlal" ordeni ilə təltif etmişəm... Biz milli azadlığımız uğrunda çalışmışıq, mübarizə aparmışıq... Bəxtiyar Vahabzadə, Məmməd Araz, Xəlil Rza kimi insanlar öz yaradıcılığı ilə bu sahədə çox işlər görüblər... İnsanlara şeir qədər, ədəbiyyat qədər, mədəniyyət nümunələri qədər güclü təsir edən, yəni insanların mənəviyyatına, əxlaqına, tərbiyəsinə, fikirlərinin formalaşmasına bu qədər güclü təsir göstərən başqa bir vasitə yoxdur. Bu vasitədən xalqımız keçmişdə də istifadə edibdir... Məhz bunların nəticəsində bizdə milli psixologiya, milli ideologiya formalaşmağa başlayıbdır.*

*Bu milli ideologiya indi böyük bir sistem şəklində deyil, yəni bir sənəd, bir proqram yoxdur. Amma bu olmalıdır və biz bunun üzərində işləyirik. Bunları toplayıb, sistemləşdirib formalaşdırmaq üçün bizim böyük bir sərvətimiz var. O sərvət də bizim mədəniyyətimizdə, ədəbiyyatımızda, xüsusən şeirimizdə olan bax, bu fikirlər, bu çox dəyərli sözlərdir.*

*...Məmməd Arazın şeirlərini götürüb oxuyursan, amma Mikayıl Mirzə kimi oxuya bilməzsən axı. Mikayıl Mirzə oxuyanda sənə daha güclü təsir edir. Və yaxud Zəlimxan Yaqub dediyi kimi, bunu sən özün qavraya bilməzsən. Ona görə də bu gün mən buradan böyük mənəvi qida aldım. Məmməd Arazın yaradıcılığı ilə, bizim mədəniyyət xadimləri ilə təmasda olmaq, görüşmək, söhbət etmək dövlət adamı kimi mənim üçün böyük bir hadisədir. Belə tədbirləri gələcəkdə də keçirmək lazımdır... Mən teleradio şirkətindən xahiş etmişəm ki, bugünkü görüşü sonra televiziya ilə tamamilə versinlər. Qoy ictimaiyyət də bilsin. Biz də çalışmalıyıq və mən də çalışacağam ki, bizim yaradıcılıq orqanlarımızda işlər canlansın, sənətkarlarımız yazsınlar, yaratsınlar...".*

### 1995-ci il 18 aprel

Prezident Heydər Əliyev yazıçı, "Azərbaycan qadını" jurnalının baş redaktoru Xalidə Hasilovanı 75 illik yubileyi münasibətilə təbrik edib.

### 1995-ci il 23 aprel

Heydər Əliyev Gənc Tamaşaçılar Teatrında keçirilən "Dünya susur, tarix susmur" adlı ədəbi-bədii gecədə iştirak edib.

### 1995-ci il 25 aprel

Prezident Heydər Əliyev Azərbaycan Dövlət Opera və Balet Teatrında görkəmli türk alimi İhsan Doğramacının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda çıxış edib.

### 1995-ci il 6-7 may

Heydər Əliyev faşizm üzərində qələbənin 50 illik yubileyinə həsr olunmuş tədbirlərə qatılmaq üçün Londonda səfərdə olub. Səfər zamanı Londonda Azərbaycan mədəniyyət evinin açılışında iştirak edib.

### 1995-ci il 13 may

Heydər Əliyev Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasında "Qadın musiqi dünyası" kamera konsertində olub.

**Hazırladı: Vüqar Orxan**

*(davamı var)*

# Çingiz Aytmatovun abidəsi ilə bağlı müsabiqə yekunlaşıb

Dünyaca məşhur ədib, Qırğızıstanın Xalq yazıçısı Çingiz Aytmatovun xatirəsinin əbədiləşdirilməsi məqsədilə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi heykəltaraşlıq müsabiqəsi keçirib. Müsabiqəyə heykəltaraşlar tərəfindən 21 əsər təqdim olunub.

Təsdiq olunmuş işlər Mədəniyyət Nazirliyinin nəzdində fəaliyyət göstərən Ekspert Komissiyası tərəfindən dəyərləndirilib və qaliblər seçilib.

Qaliblərin siyahısı belədir:
1-ci yer – Natiq Əliyev
2-ci yer – Nurəli Şahbazov
3-cü yer – İlqar Ağaşov

# "Heydər Əliyev və Azərbaycan mədəniyyəti"

## Layihə çərçivəsində seminar keçirilib

"İrsimizin Tədqiqi və Təbliği" İctimai Birliyi Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin yardımı ilə "Heydər Əliyev və Azərbaycan mədəniyyəti" adlı layihə həyata keçirir.




Ulu öndərin 100 illiyi münasibətilə reallaşan layihə çərçivəsində ilk tədbir avqustun 11-də Gəncə şəhər Heydər Əliyev Mərkəzində təşkil olunub. "Heydər Əliyev və nitq mədəniyyəti" adlı elmi seminarda mədəniyyət işçiləri, pedaqoqlar, qazilər iştirak ediblər.

Tədbiri Gəncə şəhər Heydər Əliyev Mərkəzinin direktor səlahiyyətilərini icra edən İlknur İsgəndərova açıb.

"İrsimizin Tədqiqi və Təbliği" İB-nin sədri sənətşünaslıq üzrə fəlsəfə doktoru, Əməkdar mədəniyyət işçisi Səadət Təhmirazqızı layihə haqqında məlumat verib.

Filologiya üzrə fəlsəfə doktoru, AMEA Gəncə Bölməsinin Humanitar Tədqiqatlar İnstitutu Ədəbiyyat şöbəsinin müdiri Ruziyə Quliyeva "Ümummilli lider Heydər Əliyevin müdrik kəlamları", bölmənin Nizami Gəncəvi Mərkəzinin direktoru filologiya üzrə fəlsəfə doktoru Əlimuxtar Muxtarov "Heydər Əliyev və Gəncə ədəbi mühiti", pedaqoji elmlər üzrə fəlsəfə doktoru, dosent, həmin mərkəzin böyük elmi işçisi Aləmzar Tağıyeva "Ulu öndər Heydər Əliyevin natiqlik məharəti", Gəncə Dövlət Tarix Mədəniyyət Qoruğu Nizami məqbərəsi filialının müdiri Gülnarə İsmayılova "Heydər Əliyev və Nizami irsi", Gəncə şəhər 4 nömrəli Uşaq musiqi məktəbinin direktoru, Gəncə Dövlət Universitetinin dissertantı Aynur Şıxıyeva "Ümummilli lider Heydər Əliyev və milli musiqimiz" mövzularında çıxış ediblər.

Tədbirin bədii hissəsində musiqi məktəbinin müəllimləri Rüstəm Cəfərov və Aişə Cəfərovanın ifasında Ü.Hacıbəylinin Nizaminin qəzəlinə yazdığı "Sənsiz" romansı, pianoçu Gülcan Qasımovanın ifasında Ulu öndərin çox sevdiyi "Küçələrə su səpmişəm" xalq mahnısı, F.Əmirovun "Mən səni araram" və C.Cahangirovun "Alagöz" mahnıları səslənib.

Sonda ictimai birliyin sədri Səadət Təhmirazqızı tədbirin təşkili üçün yaradılan şəraitə görə Gəncə şəhər Heydər Əliyev Mərkəzinin rəhbərliyinə, eləcə də iştirakçılara təşəkkürünü bildirib.

# "Döyüşdə heç vaxt kürəyinizi düşmənə çevirməyin..."

O, üç qardaşın ortancılı idi. Uşaq yaşlarından zəhmətə alışmış, bir usta kimi halal qazancı ilə ailəsini dolandırırdı. Amma Vətənə olan sevgisi, bağlılığı sayəsində hərbçi olmaq qərarına gəlmiş və son nəfəsini də bu şanlı formanın altında vermişdi...

Ölkəmizin ərazi bütövlüyünün bərpa olunması ilə başa çatan 2020-ci ilin Vətən müharibəsi şəhidlərindən gizir Cəmil Həşimli haqqında söz açırıq.

Cəmil Əflatun oğlu Həşimli 1995-ci il avqustun 11-də Kürdəmir rayonunda anadan olub. Kürdəmir şəhər F.Həşimov adına 3 nömrəli tam orta məktəbdə təhsil alıb. Sonra əsgərliyə gedir. Vətənə borcunu yerinə yetirib rayona qayıdır və avtomobil təmiri ilə məşğul olur. Lakin hərbçi peşəsi onu özünə cəlb etmişdi. Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzində gizir hazırlığı kursunu müvəffəqiyyətlə bitirərək gizir rütbəsi alır və Füzuli rayonundakı N saylı hərbi hissədə tağım komandirinin müavini kimi xidmətə başlayır.

2020-ci ilin 27 sentyabrı... 44 gündə tariximizin yeni şan-şöhrət səhifəsinin yazıldığı Vətən müharibəsi... Düşmən 30 ilə yaxın bir müddət idi ki, Qarabağı işğal altında saxlayırdı. Artıq qisas günü yetişmişdi. Xalqımızın mərd, igid oğulları yağının ayağını torpaqlarımızdan kəsmək üçün ölüm-dirim savaşına qalxmışdı...

Cəmil də döyüşlərin ilk günündən ön sıralarda yerini alıb silahdaşları ilə düşmən üzərinə gedirdi. Füzuli, Cəbrayıl və Xocavənd uğrunda döyüşlərdə böyük rəşadət göstərirdi. Ta ki Füzuli istiqamətində düşmənin xain gülləsi onu hədəf alanadək... Oktyabrın 5-də qorxmaz döyüşçü öz silah yoldaşları ilə birlikdə "40 metr" adlanan üçkameralı postun düşməndən azad edilməsində böyük şücaət örnəyi ortaya qoyur.



Strateji əhəmiyyətli bu posta bayrağımızı sancarkən düşmənin snayper gülləsinə tuş gələrək şəhidlik zirvəsinə ucalır. Bir gün sonra Kürdəmir rayon Şəhidlər xiyabanında torpağa tapşırılır.

Şəhidin anası, rayonda tibb bacısı işləyən Simuzər Bağırova oğul itkisinə dözmək çətin olsa da, əsl Azərbaycan qadını kimi məğrur, mətanətli, iradəli və güclü dayanaraq sözə başlayır: "Cəmilin qəlbi Vətən məhəbbəti ilə dolu idi. Uşaqlıqdan çox zəhmətkeş olub. Həmişə qardaşlarına və mənə arxa olub. Hələ hərbi xidmətdə olanda dəfələrlə hərbi hissə komandiri tərəfindən mənə zəng edib təşəkkür edirdilər ki, belə bir tərbiyəli, vətənpərvər oğul böyütmüsünüz. Vətən müharibəsi başlayandan, demək olar ki, hər gün Cəmillə əlaqə saxlayırdıq. Oktyabrın 5-də səhər saatlarında Cəmil mənə zəng vuraraq tək qalmamağımı qohumlarımızın yanına Bakı şəhərinə getməyimi istədi. Yadımdadır, həmin gün güclü yağış yağırdı. Təxminən günorta saatlarında Bakıya çatdım. Axşam saat 8-də Kürdəmirdən zəng vurdular ki, Cəmil yaralanıb, gətiririk. Mən onun yaralı olduğuna inanmırdım. Dedim, o, heç vaxt yaralı ola bilməz, yüz faiz şəhid olub...".

Simuzər ana qeyd edir ki, Vətən müharibəsi zamanı Cəmildən başqa digər iki oğlu da döyüşlərdə iştirak edib: "Həmin gecə Kürdəmirə qayıtdım. Böyük oğlum Mərahimə zəng vurub dedim ki, qardaşın şəhid olub. Mən həmişə oğullarıma söyləyirdim ki, düşmənlə döyüşəndə heç vaxt kürəyinizi ona çevirməyin, sizi arxanızdan vura bilər. Böyük oğlum Cəmilin nəşini götürəndə görüb ki, qardaşı ürəyindən güllə yarası alıb. Mənə dedi ki, ana, sən necə demişdinsə, Cəmil elə də şəhid olub. Allah bütün şəhidlərimizə rəhmət eləsin".

Cəmil Həşimli ölkə başçısının müvafiq sərəncamları ilə ölümündən sonra 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Cəsur döyüşçü", Şuşa, Füzuli və Xocavəndin azad olunmasına görə medalları ilə təltif olunub.

Şəhidin adına məzunu olduğu orta məktəbin həyətində bulaq-abidə inşa edilib. Bundan başqa, Kürdəmir rayonunda iki küçəyə şəhidin adı verilib.

Cəmil kimi qəhrəman oğullarımızın sayəsində ölkəmizin ərazi bütövlüyü bərpa olundu. Bu gün azad Qarabağ torpağında üçrəngli bayrağımız dalğalanırsa, biz şəhid və qazilərimizə, Cəmil kimi qəhrəmanlara minnətdarıq.

Allah rəhmət eləsin.

**Nurəddin**

# Ağsu qoruğunda arxeoloji düşərgə təşkil olunub

## Məktəblilər imitasiya olunmuş qazıntıda da iştirak ediblər

Mədəniyyət Nazirliyi yanında Mədəni İrsin Qorunması, İnkişafı və Bərpası üzrə Dövlət Xidmətinin "Orta əsr Ağsu şəhəri" Dövlət-Tarix Mədəniyyət Qoruğunda Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin İsmayıllı Uşaq və Ailələrə Dəstək Mərkəzi ilə birgə layihə əsasında avqustun 9-da arxeoloji düşərgə təşkil olunub.

Düşərgədə İsmayıllı rayonundan məktəblilər, tarix üzrə olimpiadalarda yüksək nəticə göstərmiş şagirdlər, I və II Qarabağ müharibələrinin şəhid və qazilərinin övladları iştirak ediblər.



AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutunun aparıcı elmi işçisi tarix üzrə fəlsəfə doktoru Fariz Xəlillinin rəhbərliyi ilə reallaşan arxeoloji düşərgənin məqsədi gəncləri mədəni irs abidələri ilə əyani tanış etmək, onların biliklərini nəzəri və təcrübi əsaslarla artırmaqdır. Fariz Xəlilli "Orta əsr Ağsu şəhəri" qoruğu, burada qazıntılar nəticəsində üzə çıxan tapıntılar haqqında məktəblilərə məlumat verib.

Qoruq ərazisindəki baş meydanda imitasiya olunmuş arxeoloji qazıntı həyata keçirilib. Əvvəlcə məktəblilər sahə ilə tanış olub və arxeoloqun təlimatlarını dinləyib, proses zamanı işlədiləcək alətlər haqqında məlumat alıblar. Maska, əlcək və digər zəruri vasitələrlə də təmin edilən şagirdlər üç qrup şəklində işə başlayıblar. İmitasiya olunmuş arxeoloji qazıntı zamanı məktəblilər tərəfindən müxtəlif arxeoloji materiallar – saxsı qab parçaları, dəmir əşyalar, 2 ədəd mis sikkə, kömür qalıqları və s. aşkara çıxarılıb.

Eksponatlar təmizlənib və qeydiyyata alınaraq aktlaşdırılıb.

Proqram çərçivəsində iştirakçılar üçün qoruq ərazisindəki sənətkarlıq məhəlləsi, hamam-yaşayış kompleksi, buzxana-anbar və Cümə məscidi üzrə ekskursiya təşkil olunub. Düşərgə iştirakçıları Cümə məscidi ərazisindəki Şıxməzid xanəgahı ilə bağlı sərgi ilə də tanış olublar.

# Türk dünyasının tarixi ilə bağlı arxeoloji tədqiqatlar davam edir

Monqolustanda səfərdə olan Beynəlxalq Türk Akademiyasının prezidenti akademik Şahin Mustafayev Arxanqay vadisində aparılan "Nomqon – 2023" elmi arxeoloji ekspedisiyasının nəticələri ilə tanış olub.

Bu barədə Beynəlxalq Türk Akademiyasından məlumat verilib.

Bildirilib ki, ötən il Nomqon düzündə Beynəlxalq Türk Akademiyası və Monqolustan Elmlər Akademiyasının birgə apardığı elmi arxeoloji ekspedisiya nəticəsində Kutluk İlteriş Kağana həsr olunmuş kompleks aşkar edilib. Abidə kompleksi bütün xüsusiyyətlərinə görə Bilge Kağan və Kültegin abidələrinə bənzəyir.



Bundan əvvəl Beynəlxalq Türk Akademiyası Monqolustanda Şiveet-ulan abidəsində arxeoloji qazıntılar aparıb, 2016-cı ildə vadiyə xüsusi ekspedisiya təşkil edib. Kutluk xanları dövründə tikilmiş mərasim kompleksində abidə daşı və müxtəlif əşyalar aşkarlanaraq onların tarixləri müəyyən edilib. Mərasim kompleksi 2018-ci ildə mühafizə edilmək üçün hasara alınıb. Bu işlərin davamı olaraq 2019-cu ildə Nomqon qazıntılarına başlanılıb. Bu il aparılan qazıntılar nəticəsində Türk xaqanlığı dövrünə aid mühüm tapıntılar aşkar edilib.

Şahin Mustafayev Nomqon kompleksindən 80 kilometr aralıda yerləşən Ötüken düzündəki Kültegin və Bilgə Kağan kompleksləri ilə də tanış olub, vaxtilə qədim Karakorim şəhərinin olduğu yerə baş çəkib.

Qafur Qulam – 120

# Özbək ədəbiyyatının görkəmli nümayəndəsi

## Şairin yaradıcılığında Azərbaycanın söz ustadlarına dərin rəğbət duyulur



Bu il XX əsr özbək ədəbiyyatının görkəmli nümayəndələrindən Xalq şairi, Dövlət mükafatı laureatı, akademik Qafur Qulamın anadan olmasının 120 illiyidir. Şair bənzərsiz poeziyası ilə özbək ədəbiyyatına yeni ruh və üslub gətirib. Onun yaradıcılığında Azərbaycana qəlbən bağlılıq, klassik ədəbi irsimizə dərin rəğbət hissi aydın duyulur.

Qafur Qulam 10 may 1903-cü ildə Daşkənddə ziyalı ailədə dünyaya göz açıb. İlk təhsilini mədrəsədə alır. Mütaliə yolu ilə biliyini artırır. Atası Qulam ağa savadlı şəxs olub, tacik dilini də bilib. 44 yaşında ikən vəfat edib. Anası da yazıb-oxumağı bacarıb, yaddaşı el ədəbiyyatı nümunələri ilə zəngin olub. Dayısı Abdulla "Mirzə" təxəllüsü ilə şeirlər yazıb. Belə bir mühitdə böyüyən Qafurda erkən çağlardan özbək və fars-tacik ədəbiyyatına dərin maraq yaranıb. Məktəbli yaşlarından şeirlər yazmağa başlayıb. O, sonralar xatirələr kitabında ədəbi zövqünün formalaşması ilə bağlı yazıb: "Mən öz mütaliəmlə biliklər əldə etdim. Buna görə də əvvəlcə atama, sonra isə anama borcluyam".

II Dünya müharibəsi zamanı valideynlərini müharibədə itirən özbək uşaqlarına acıyan şair 1942-ci ildə "Sən yetim deyilsən" şeirini qələmə alır. Bu şeir 1958-ci ildə Azərbaycanda "Özbək ədəbiyyatı antologiyası"nda şair Qasım Qasımzadənin, 1979-cu ildə isə şair Əhəd Muxtarın tərcümələrində, eləcə də Q.Qulamın "Ömrün baharında" kitabında işıq üzü görüb.

Ədəbiyyatşünas, professor Pənah Xəlilov Q.Qulamın yaradıcılığı ilə bağlı araşdırmasında yazır: "Qafur Qulamın hər şeirində tamamlanmamış bir poetik fikir vardır və müəllif əlvan təsvir vasitələrindən həmin fikri vermək üçün istifadə edir".

Görkəmli ədibin şeirləri, xüsusilə poema, hekayə və povestləri, rus və dünya klassiklərindən etdiyi tərcümələr Özbəkistan ədəbi mühitinin zənginləşməsinə mühüm təsir göstərib. Nazim Hikmətin pyesləri, U.Şekspirin "Otello", Ş.Rustavelinin "Pələng dərisi geymiş pəhləvan" əsərləri Q.Qulamın tərcüməsində özbək oxucularına təqdim olunub.

Özbək ədəbi tənqidinin tanınmış nümayəndələrindən İbrahim Qafurov şairin yaradıcılığı haqqında qeyd edir ki, xalqın tarixi, insanı yer üzünün əşrəfi edən əmək və yaşadığı dövrün ictimai-siyasi prosesləri Q.Qulamın ədəbi irsində həmişə diqqət mərkəzində olub. Şair bu ideyaları daim məhəbbətlə tərənnüm edib. Onun "Mən Şərqdənəm"



şeiri əzəmət, milli iftixar və qürurdan yaranıb.

Q.Qulamın ədəbi irsi Azərbaycan oxucusunun daim diqqət mərkəzində olub. Tanınmış Azərbaycan şairləri Xəlil Rza, Qasım Qasımzadə, Məmməd Aslan, Səyavuş Sərxanlı, Əhəd Muxtar, Nüsrət Kəsəmənli, Vaqif Hüseynov, İsgəndər Coşqun, Şəkər Aslan, Cavad Zeynal və başqaları onun şeirlərini dilimizə tərcümə ediblər.

Araşdırmalardan aydın olur ki, şairin əsərlərinin Azərbaycanda sevilməsinin əsasında onun xalqımıza və ölkəmizə olan sevgisi dayanır. Müəllifin "Bir-birinə şagird, bir-birinə ustad", "Qırx yaşlı Azərbaycan", "Qardaşım Səməd Vurğuna", "Qardaş Azərbaycan pambıqçılarına", "Xəzər" və s. şeirlərində onun ölkəmizə səmimi məhəbbəti əksini tapıb. O, XX əsr Azərbaycan poeziyasının görkəmli nümayəndəsi, Xalq şairi Səməd Vurğunun pərəstişkarlarından olub. Müəllif "Qardaşım Səməd Vurğuna" şeirini ölməz şairin 50 illik yubileyinə həsr edib:

*Burnumun ucu göynər*
*yada düşəndə dostlar,*
*Səməd Vurğun adını*
*çəkərəm qürur ilə.*
*Özbəkistan göyləri*
*mənim qəlbimtək dolar*
*Azərbaycandan gələn*
*sevinc ilə, nur ilə!*

Q.Qulamın başqa bir şeirində isə klassik ədəbiyyatımızın görkəmli simalarına şükranlıq duyğusu öz əksini tapıb:

*Nizami dühasının*
*tükənməyən sərvəti*
*Şərqdə neçə şairin*
*yapışıbdır qolundan.*
*Füzuliyə, Vaqifə,*
*Vidadiyə min hörmət,*
*Canlı klassikidir*
*Səməd Vurğun bu əsrin.*

Bənzərsiz yaradıcılığı yüksək qiymətləndirilən və ədəbi ictimaiyyət tərəfindən maraqla qarşılanan Q.Qulam 1943-cü ildə Özbəkistan SSR Elmlər Akademiyasının həqiqi üzvü seçilir. "Xalq şairi" fəxri adına, SSRİ Dövlət və Lenin mükafatlarına layiq görülür.

Özbək ədəbi fikrinin inkişafında mühüm rol oynamış Qafur Qulam 10 iyul 1966-cı ildə Daşkənddə vəfat edib.

**Savalan Fərəcov**

# Bədii tədris müəssisələrinin modernləşdirilməsi qarşıda duran əsas vəzifələrdən biridir

Mədəniyyət Nazirliyi tərəfindən uşaq incəsənət və musiqi məktəblərində direktor, direktor müavini və müəllimlərin işə qəbulu prosesinin ikimərhələli sistemlə həyata keçirilməsinə başlanılıb. Birinci mərhələ – test mərhələsi Dövlət İmtahan Mərkəzi ilə birgə təşkil olunur. İkinci mərhələ isə müsahibə şəklində qabiliyyətin yoxlanılmasından ibarətdir. Burada namizədlərin bilik və bacarıqları müstəqil ekspertlər, peşəkar mütəxəssislər tərəfindən qiymətləndirilir.

Mədəniyyət Nazirliyinin Media və kommunikasiya şöbəsinin rəhbəri Aynur Kərimova bu mövzuda bir sıra məsələlərə aydınlıq gətirib.




*– Mədəniyyət Nazirliyinin tabe təhsil müəssisələrinə 2023-cü ildə direktor, direktor müavinləri və müəllimlərin işə qəbulu ilə bağlı ümumi yanaşma və prosedur özündə nəyi ehtiva edir? Müsabiqələrdə kimlər iştirak edə bilir?*

– Uşaq incəsənət və musiqi məktəblərində tədrisin necə qurulması mədəniyyətimizin inkişafının təməlində dayanan mühüm məsələlərdəndir və bu sahədə keyfiyyətli təhsil başlıca meyardır. Sözsüz ki, musiqi, incəsənət, rəssamlıq, aşıq məktəb və mərkəzlərində tədrisin yüksək səviyyədə qurulmasında, peşəkar müəllim kadrlarının müstəsna rolu var. Çünki bu sahə baza rolunu oynayır və burada təhsilin təməli daha möhkəm və etibarlı qoyulmalıdır.

Öncə onu deyim ki, qeyd etdiyiniz imtahanlarla bağlı nazirliyə çoxsaylı müraciət və suallar ünvanlanır. Nəzərə çatdırmaq istərdik ki, Mədəniyyət Nazirliyinin tabeliyində olan uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə müsabiqənin test imtahanı mərhələsində 2022-ci ildə iştirak etmiş namizədlərin əldə etdikləri nəticələr, yəni toplanmış ballar 2 il qüvvədə qalır. Bununla əlaqədar 2022-ci ildə test imtahanında müvafiq minimal balı toplamış namizədlər test imtahanına qatılmadan iştirak edə bilərlər. Bu müəssisələrdə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu "Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi tərəfindən uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə direktorların, direktor müavinlərinin və müəllimlərin işə qəbulu Qaydaları"nın tələblərinə müvafiq olaraq müsabiqə əsasında həyata keçirilir. Müsabiqə test imtahanından və müsahibədən ibarət olmaqla iki mərhələdə təşkil olunur.

Direktorların və direktor müavinlərinin işə qəbulu üzrə müsabiqədə ali təhsil müəssisələrini "Mədəniyyət və incəsənət ixtisasları qrupu" üzrə bitirərək diplom almış, ixtisası üzrə 5 ildən az olmayaraq pedaqoji əmək stajı olan Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər. Xarici dövlətin təhsil müəssisəsini bitirmiş şəxslər isə müvafiq icra hakimiyyəti orqanı tərəfindən verilən ali təhsilə aid kvalifikasiyaların tanınmasına dair təsdiq edilmiş şəhadətnamə təqdim etməlidir. Müəllimlərin işə qəbulu üzrə müsabiqədə orta ixtisas və ali təhsil müəssisələrini "Mədəniyyət və incəsənət ixtisasları qrupu" üzrə bitirərək diplom almış, eləcə də xarici dövlətin təhsil müəssisəsini bitirmiş şəxslərə verilən yuxarıda qeyd olunan müvafiq şəhadətnaməni təqdim etmiş Azərbaycan Respublikasının vətəndaşları iştirak edə bilərlər.

*– Müsabiqənin test imtahanı mərhələsi necə keçdi?*

– İmtahanın keçirilməsi və müvafiq qaydalarla bağlı əvvəlcədən Mədəniyyət Nazirliyinin rəsmi internet saytının "Elanlar" bölməsində məlumatlar yerləşdirilmişdi. Müsabiqənin test imtahanı mərhələsi 16 iyul 2023-cü il tarixində Dövlət İmtahan Mərkəzi tərəfindən həyata keçirilib. Nəticələr isə iyulun 18-də elan olunub.

*– Ümumilikdə test imtahanlarında iştirakçılıq hansı səviyyədə olub?*

– Nəzərə almaq lazımdır ki, musiqi və incəsənət məktəbləri hər zaman cəmiyyətimizin xüsusi diqqətində olublar. Əksər ailələr məktəbyaşlı övladlarını bu sahəyə yönəltmək arzusunda olurlar. İncəsənət sahəsi insanlar arasında populyar olduğu kimi, bu istiqamət üzrə tədris müəssisələrində çalışmaq istəyənlərin də sayı ildən-ilə artır. Elə bu səbəbdən də direktor və direktor müavini vəzifələri üzrə işə qəbulun test imtahanı mərhələsi üçün ümumi 86 nəfər namizəd qeydiyyatdan keçmiş, onlardan 83 nəfəri imtahanda iştirak etmiş, 37 nəfəri keçid balını toplayaraq növbəti mərhələdə iştirak hüququ qazanmışdı. Müəllimlərin işə qəbulu üzrə test imtahanı mərhələsi üçün ümumilikdə 1048 nəfər namizəd qeydiyyatdan keçmiş, onlardan 1026 nəfəri imtahana qatılmış, 511 nəfəri keçid balını toplayaraq növbəti mərhələdə iştirak haqqına sahib olmuşdu.

*– Şəhid ailələri və qazilərə işə qəbul zamanı hər hansı güzəştlər tətbiq edilirmi?*

– Əlbəttə. Azərbaycan dövləti şəhid ailələrinə, müharibə veteranlarına və qazilərə yüksək diqqət və qayğı göstərir. Prezident İlham Əliyev bütün dövlət qurumları qarşısında bu həssas kateqoriyaya aid olan insanların problemlərinin həllini bir nömrəli vəzifə kimi müəyyən edib. Şəhid ailələri və müharibə əlillərinin həyat şəraitinin və rifahının yaxşılaşdırılmasına daim xüsusi diqqət və həssaslıqla yanaşılır. Vətəndaşlarımızın daim qayğı ilə əhatələnməsi, dövlət dəstəyini hiss etməsi dövlət siyasətinin prioritet hədəflərinin təməlində dayanır. Bu gün Vətən müharibəsi iştirakçılarının və şəhid ailələrinin sosial qayğılarının həll edilməsi üçün zəruri tədbirlər görülür. Nazirlik tərəfindən də bu istiqamətdə müvafiq addımlar atılır. Bütün bu sadaladıqlarımızdan irəli gələrək müsabiqədə uğurlu nəticə göstərmiş namizədlər arasında seçim edilərkən şəxsin şəhid ailəsinin üzvü və ya müharibə iştirakçısı olması da nəzərə alınır.

*– Müsabiqənin test imtahanı mərhələsindən müvəffəqiyyətlə keçmiş namizədlərin vakansiya seçimi nə zaman başlayacaq?*

– Mədəniyyət Nazirliyinin tabeliyindəki uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərində direktor, direktor müavini və müəllim vəzifələri üzrə vakansiyalar haqqında məlumat işə qəbul üzrə müsabiqənin müsahibə mərhələsində iştirak üçün qeydiyyat aparıldığı zaman – 2023-cü il 20 avqust tarixindən sonra Mədəniyyət Nazirliyinin culture.gov.az saytında yerləşdiriləcək.

*– Namizədlər müsahibə proqramı ilə haradan tanış ola bilərlər?*

– Məktəblərimizdə yalnız savadı ilə deyil, həm də qabaqcıl tədris metodikası ilə fərqlənən müəllimlərin çalışması müvəffəqiyyət üçün mühüm göstəricidir. Təbii ki, nisbətən gənc müəllimlərin təcrübə toplamalarına zərurət mövcuddur və onların bu istiqamətdə dəstəyə ehtiyacları var. Məktəblərin modernləşdirilməsi, onların maddi-texniki bazasının gücləndirilməsi, kadr potensialının möhkəmləndirilməsi, şagird hazırlığının keyfiyyətinə nəzarət mexanizmlərinin təkmilləşdirilməsi, təhsilin məzmunca yeniləşdirilməsi qarşıda qoyulmuş əsas vəzifələr olduğu üçün, müsahibə zamanı da bu meyarlara üstünlük verilir. Mövzu ilə bağlı mütəmadi olaraq nazirliyin internet informasiya ehtiyatlarında elanlar yerləşdirilir. Müsahibə proqramı haqqında məlumatlar da, həmçinin nazirliyin rəsmi informasiya saytında yerləşdirilmişdir.

Onu da vurğulayım ki, təhsil müəssisəsinin rəhbərliyinə namizəd olan şəxs məktəbin fəaliyyətinin təkmilləşdirilməsi üzrə öz proqramını təqdim etməlidir. Proqramda məktəbin gələcək vəziyyətinin təsviri, sahə üzrə problemlərin həlli yolları, müvafiq sahənin və məktəbin inkişafını təmin edəcək tədbirlər və fəaliyyətlər planı, mövcud resurslardan istifadə etməklə daha yüksək nəticə əldə etmək üçün təkliflər, proqramın həyata keçirilməsindən gözlənilən nəticələr öz əksini tapmalıdır. Direktorların və direktor müavinlərinin işə qəbulu üzrə müsabiqənin müsahibə mərhələsində iştirak edən namizədin vakant vəzifəyə təqdim etdiyi proqramın aktuallığı, səmərəliliyi, sistemliliyi, reallığı, ətraflı və detallı işlənilməsi və s. sahələr üzrə qiymətləndirilir. Bura həmçinin namizədin emosional sabitliyi, məsuliyyətliliyi, məqsədyönlülüyü, dürüstlüyü, özünütənqid, nüfuzetmə, təhliletmə, ünsiyyətqurma bacarıqları daxildir.

*– Müsahibənin nəticəsindən narazı olan namizədlər hara müraciət etməlidirlər?*

– Müəllimlərin istedad və bacarıqları qiymətləndiriləcək, şəffaf, obyektiv şəkildə qərarlar qəbul ediləcək. Müsahibə mərhələsinin nəticələrindən narazı qalan namizədlər appelyasiya@culture.gov.az ünvanı ilə müraciətlərini edə bilərlər. İnanırıq ki, hər kəsin bilik və bacarığı ölçüsündə dəyərləndiriləcək. Müsabiqənin müsahibə mərhələsinin nəticəsindən razı olmayan namizədlərin şikayətlərinə baxılması məqsədilə Apellyasiya komissiyası yaradılıb. Komissiya şikayətləri obyektiv şəkildə araşdıraraq namizədin iddia etdiyi vəzifəyə uyğun olub-olmaması barədə müvafiq qərar qəbul edir və bu haqda namizədin məlumatlandırılmasını təmin edir.

*– Test və müsahibə mərhələsindən uğurla keçmiş, lakin vakant yer olmadığı üçün təyinat ala bilməyən namizədlərin aqibəti necə olacaq?*

– İncəsənət təhsili şəxsiyyətin hərtərəfli inkişafında, onun mənəviyyatının, yaradıcı fərdiliyinin, intellektual və emosional zənginliyinin formalaşmasında, əxlaqi cəhətdən sağlam nəslin yetişməsində böyük əhəmiyyət kəsb edir. İşə qəbul üzrə keçirilən müsabiqədə uğur qazanan, lakin vəzifəyə təyin edilməyən namizədlər iki il müddətinə ehtiyat kadrlar siyahısına daxil edilirlər. Bu müddətdə müvafiq ixtisas üzrə vakant vəzifə yaranarsa, həmin namizədlər onların razılığı ilə müsabiqədənkənar vəzifəyə təyin edilə bilərlər.

*– Müəllimlərin işə qəbulu üzrə test imtahanının keçid balları barədə nə deyərdiniz?*

– Uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə test imtahanında 35 bal toplamış namizədlər, Bakı, Sumqayıt və Gəncə şəhərlərində, Abşeron rayonunda yerləşən məktəblərdə işə qəbul olunmaq istəyən namizədlər istisna olmaqla, uğur qazanmış hesab edilirlər. Bakı şəhərinin məktəbləri üzrə test imtahanlarında 49 bal toplamış namizədlər, Abşeron rayonu, Sumqayıt və Gəncə şəhərləri üzrə 42 bal toplamış namizədlər uğur qazanmış hesab olunurlar. Simli alətlər – violonçel və kontrabas, klassik və milli nəfəsli alətlər, habelə xoreoqrafiya ixtisaslarına gəlincə isə bu ixtisaslar üzrə Bakı şəhər məktəbləri üçün 44, Sumqayıt və Gəncə şəhərləri, Abşeron rayonu üçün 37, digər regionlar üzrə 30 bal müəyyən edilib.

*– Müəllimlərin işə qəbulu üzrə müsabiqədə uğur qazanmış namizəd ikinci iş yeri kimi musiqi məktəblərində çalışa bilərmi?*

– Bütün sahələrdə olduğu kimi, bu sahədə də fəaliyyət Azərbaycan Respublikası Əmək Məcəlləsinin müddəalarına uyğun tənzimlənir. Mədəniyyət Nazirliyi sistemindəki uşaq musiqi, incəsənət, rəssamlıq, muğam, aşıq məktəb və mərkəzlərinə müəllimlərin işə qəbulu üzrə müsabiqədə uğur qazanmış namizədin yalnız əsas işçi kimi təyinatı ilə bağlı qərar verilir. Belə ki, məktəbdə əlavə, yəni ikinci iş yeri üzrə çalışan işçi tərəfindən müvafiq vakansiyanın tutulması müsabiqədə uğur qazanmış və əsas iş yeri olmayan digər namizədlərin haqlı narazılığına səbəb olur.

*– Müəllimlər iş yerini bir məktəbdən digər məktəbə dəyişə bilərmi? Bu zaman prosedur hansı formada həyata keçirilir?*

– Məktəblərdə müddətsiz əmək müqaviləsi ilə işləyən müəllimlərin işə qəbulla bağlı müsabiqə şərtləri eyni olan ərazilər daxilində iş yerinin dəyişdirilməsi məsələsinə nazirliklə razılaşdırmaqla müvafiq regional idarələr tərəfindən fərdi qaydada baxılır. Digər hallarda müəllimlərin yerdəyişməsi nazirlik tərəfindən yaradılan komissiyanın qərarına əsasən müsahibə yolu ilə həyata keçirilir.

## Respublika Uşaq Kitabxanası beynəlxalq forumda ölkəmizi təmsil edəcək

Avqustun 30-dan sentyabrın 1-dək Moskvada "Uşaq ədəbiyyatı dilində: MDB ölkələri və Gürcüstanın uşaq ədəbiyyatı və mütaliə sahəsində əməkdaşlığı" adlı beynəlxalq uşaq və gənclər kitab forumu keçiriləcək.

Tədbir Rusiya Federasiyasının Mədəniyyət Nazirliyi və MDB ölkələrinin Dövlətlərarası Humanitar Əməkdaşlığı Fondunun dəstəyi ilə Rusiya Dövlət Uşaq Kitabxanası tərəfindən "Oxucu yetişdiririk" assosiasiyası ilə birgə təşkil olunub.

Forumun proqramı uşaq ədəbiyyatı, tərcümə, illüstrasiyalar və kitab dizaynı, eləcə də rus dilinin millətlərarası ünsiyyət kimi əsas roluna həsr edilib.



Azərbaycanı beynəlxalq forumda F.Köçərli adına Respublika Uşaq Kitabxanasının direktor müavini Zahirə Dadaşova təmsil edəcək. Azərbaycandan başqa forumda Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya, Tacikistan, Özbəkistan, Gürcüstan və digər ölkələrdən uşaq yazıçıları, rəssam-illüstratorlar, uşaq kitablarının dizaynerləri, kitabxanaçılar və s. qonaqlar iştirak edəcək.

## Xatirə təqvimi — 12–17 avqust

### Azərbaycan

**12 avqust 1921** – Yazıçı, tərcüməçi, Əməkdar mədəniyyət işçisi Ələviyyə Hənifə qızı Babayeva (1921 – 23.9.2014) anadan olub. "Haradasan dost, harada", "Adamlar və talelər", "Sönmüş ulduzların işığı" və s. romanların müəllifidir.

**12 avqust 1923** – Tərcüməçi Kamil Həsən oğlu Məmmədov (1923-1989) Bakıda anadan olub. SSRİ xalqları ədəbiyyatından tərcümə etdiyi pyeslər teatrlarda tamaşaya qoyulub.

**12 avqust 1926** – Xalq şairi, Dövlət mükafatı laureatı Qabil (Qabil Allahverdi oğlu İmamverdiyev; 1926 – 3.4. 2007) Bakıda anadan olub. Kitabları: "Mənim mavi Xəzərim", "Ömrüm boyu", "Nəsimi", "Ömrün həbləri", "İlahi qisməti" və s.

**12 avqust 1943** – Xalq artisti Vaqif Abdulla oğlu Şərifov (1943 – 5.10.2021) anadan olub. Sumqayıt, Ağdam teatrlarında baş rejissor, Gəncə Dövlət Dram Teatrında baş rejissor və bədii rəhbər işləyib, filmlərə çəkilib.

**13 avqust 1944** – Əməkdar artist Mansur Əbdül oğlu Mansurov (1944 – 22.4.2020) Bakıda doğulub. 1970-ci ildən ömrünün sonuna qədər A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının aktyoru olub.

**13 avqust 1947** – Xalq artisti, rejissor Azər Paşa Zəfər oğlu Nemətov (1947 – 9.4.2023) Bakıda anadan olub. Gənc Tamaşaçılar Teatrında işləyib. 1990-cı ildən Akademik Milli Dram Teatrında fəaliyyətə başlayıb. 2015-ci ildə teatrın bədii rəhbəri-baş rejissoru, 2016-cı ildə direktoru təyin edilib. Azərbaycan Teatr Xadimləri İttifaqının sədri (2004-cü ildən) olub.

**13 avqust 2021** – Xalq artisti, aktyor Vaqif Məzahir oğlu Əliyev (31.7.1940 – 2021) vəfat edib. Sumqayıt Dövlət Dram Teatrının aktyoru olub. Bakı Bələdiyyə Teatrında çalışıb.

**14 avqust 1923** – Ədəbiyyatşünas, akademik, Dövlət mükafatı laureatı Kamal Abdulla Şaiq oğlu Talıbzadə (1923 – 20.1.2006) anadan olub. "Ədəbi irs və varislər", "Azərbaycan ədəbi tənqidinin tarixi" və s. monoqrafiya və kitabların müəllifidir.

**14 avqust 1933** – Şair, Əməkdar incəsənət xadimi Ramiz Heydər (Məmmədov; 1933-2010) Bakıda anadan olub. 30-dək kitabın müəllifidir. Sözlərinə "Ayrılma məndən", "Toy olsun, bayram olsun" və s. populyar mahnılar bəstələnib.

**14 avqust 1938** – Əməkdar memar, memarlıq doktoru, professor, Beynəlxalq Memarlıq Akademiyasının müxbir üzvü Nəriman Əşrəf oğlu Əliyev (1938 – 13.7.2020) anadan olub.

**14 avqust 1940** – Yazıçı-tərcüməçi, kino təşkilatçısı Asif Akif oğlu Əliyev (1940-2001) anadan olub. "Azərbaycanfilm" kinostudiyasında dublyaj şöbəsinin baş redaktoru işləyib.

**14 avqust 1948** – Əməkdar mədəniyyət işçisi Yavər Qəhrəman oğlu Cəbrayılov (1948 – 6.5.2023) anadan olub. Salyan Dövlət Kukla Teatrının direktoru işləyib.

**14 avqust 1961** – Əməkdar artist Əzizə Əbdülbağı qızı Məmmədova (1892, Tiflis – 1961) vəfat edib. Akademik Milli Dram, Türk İşçi teatrlarında çalışıb, "Görüş", "Səhər" və s. filmlərdə çəkilib.

**14 avqust 2009** – Prezident İlham Əliyev görkəmli müğənni, bəstəkar, SSRİ Xalq artisti Müslüm Maqomayevin xatirəsinin əbədiləşdirilməsi haqqında sərəncam imzalayıb.

**14 avqust 2017** – Tanınmış rəssam Əsgər Əsgərov (1948-2017) vəfat edib. Rəngkarlıq, batika, qrafika və s. nümunələrində İçərişəhər mövzu və motivləri xüsusi yer tutur.

**15 avqust 1902** – Əməkdar artist Qəmər Topuriya (Tamara Vissarionovna Topuriya; 1902-1947) Tiflisdə doğulub. Tiflis Azərbaycan Dram Teatrının, Azərbaycan Dövlət Akademik Dram Teatrının aktrisası olub.

**15 avqust 1922** – Xalq artisti, respublikanın Dövlət mükafatı laureatı Konstantin Adamov (1922-1990) Bakıda doğulub. Azərbaycan Dövlət Rus Dram Teatrının aktyoru olub, filmlərdə çəkilib.

**15 avqust 1936** – Əməkdar memar Tofiq Əli oğlu Abdullayev (1936 – 14.12.2021) Göygöl rayonunda doğulub. Azərbaycan Memarlıq və İnşaat Universitetinin professoru olub.

**15 avqust 1952** – Əməkdar müəllim Yusif Boran oğlu Vəliyev (1952 – 25.5.2021) Ağdam şəhərində anadan olub. Bakı şəhəri G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbinin direktoru işləyib.

**15 avqust 2018** – Prezident İlham Əliyev görkəmli opera müğənnisi, Xalq artisti Gülxar Həsənovanın 100 illik yubileyinin qeyd edilməsi haqqında sərəncam imzalayıb.

**16 avqust 1924** – Məşhur tarzən, Əməkdar artist Əhsən Əliabbas oğlu Dadaşov (1924 –29.5.1976) Bakıda anadan olub. 1960-cı ildə Azərbaycan Televiziyası və Radiosunun "Xatirə" xalq çalğı alətləri ansamblını yaradıb. Hazırda kollektiv Əhsən Dadaşovun adını daşıyır.

**16 avqust 1925** – Xalq şairi, dramaturq, ədəbiyyatşünas, akademik, Dövlət mükafatları laureatı Bəxtiyar Mahmud oğlu Vahabzadə (1925 – 13.2.2009) Şəkidə anadan olub. 20-dək poema, 10 dram əsəri ("Vicdan", "Yollara iz düşür", "Özümüzü kəsən qılınc", "Dar ağacı" və s.) yazıb. Azərbaycan Ali Sovetinin (1980-1995), Milli Məclisin (1995-2000) deputatı olub.

**16 avqust 1925** – Yazıçı-dramaturq, ədəbiyyatşünas, dövlət xadimi Şıxəli Qurban oğlu Qurbanov (1925 – 24.5.1967) Bakıda doğulub. "Əcəb işə düşdük", "Özümüz bilərik", "Olmadı elə, oldu belə", "Milyonçunun dilənçi oğlu" pyeslərinin müəllifidir. Azərbaycan EA-nın Dil və Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan KP MK-nın katibi olub.

**16 avqust 1936** – Tanınmış filosof, AMEA-nın müxbir üzvü Zakir Cabbar oğlu Məmmədov (Baharlı; 1936 – 2.3.2003) Ağdamda doğulub. "Azərbaycanda XI-XIII əsrlərdə fəlsəfi fikir", "Orta əsr Azərbaycan filosofları və mütəfəkkirləri" və s. kitabların müəllifidir.

**17 avqust 1942** – Dünya şöhrətli Azərbaycan müğənnisi, bəstəkar, SSRİ Xalq artisti Müslüm Məhəmməd oğlu Maqomayev (1942 – 25.10.2008) Bakıda doğulub. Beynəlxalq müsabiqələrin qalibi, Akademik Opera və Balet Teatrının solisti, Azərbaycan Dövlət Estrada-Simfonik Orkestrinin bədii rəhbəri olub. "Nizami" filmində baş rola çəkilib.

**17 avqust 1943** – Xalq artisti, müğənni İlhamə Məzahir qızı Quliyeva (1943 – 25.2.2016) anadan olub. Azərbaycan Televiziyası və Radiosu estrada orkestrinin, Dövlət Filarmoniyasının solisti olub.

**17 avqust 1951** – Tanınmış müğənni Cəfər Ağaəli oğlu Behbudov (1951 – 26.9.2019) Bakıda doğulub. Azərbaycan Televiziyasının solisti olub. 1991-ci ildən Ukraynada yaşayıb.

**17 avqust 1958** – Musiqişünas, sənətşünaslıq namizədi Aytəkin Tofiq qızı Həsənova (1958-2012) Bakıda doğulub. Bakı Musiqi Akademiyasının professoru, Mədəniyyət və İncəsənət Universitetinin kafedra müdiri olub.

**17 avqust 1998** – Xalq yazıçısı Yusif Səmədoğlu (Yusif Səməd oğlu Vəkilov; 25.12.1935 – 1998) vəfat edib. "Ulduz", "Azərbaycan" jurnallarının baş redaktoru, Milli Məclisin deputatı olub.

### Dünya

**12 avqust 1866** – İspan dramaturqu, ədəbiyyat üzrə Nobel mükafatı (1922) laureatı Xasinto Benavente-i-Martines (Jacinto Benavente Martinez; 1866-1954) anadan olub. "Qubernatorun xanımı", "Şənbə gecəsi", "Yaxşı məhəbbətin dərsləri" və s. pyeslərin müəllifidir.

**13 avqust 1899** – Amerika rejissoru, "Oskar" mükafatları laureatı Alfred Hiçkok (Alfred Joseph Hitchcock; 1899-1980) anadan olub. Filmləri: "Quşlar", "Naməlum insanlar qatarda", "39 pillə" və s.

**14 avqust 1867** – İngilis yazıçısı, dramaturq və şair, ədəbiyyat üzrə Nobel mükafatı (1932) laureatı Con Qolsuorsi (John Galsworthy; 1867-1933) anadan olub. "Forsaytlar haqqında saqa" trilogiyası, "Gümüş qutu" pyesi və s. əsərlərin müəllifidir.

**15 avqust 1771** – Şotland yazıçısı, şairi Valter Skott (Walter Scott; 1771–1832) anadan olub. Tarixi roman janrının banisi sayılır. Əsərləri: "Edinburq həbsxanası", "Ayvenqo", "Kventin Dorvard", "Marmion" (mənzum roman) və s.

**15 avqust 1890** – Fransız bəstəkarı Jak İber (Jacques François Antoine İbert; 1890-1962) anadan olub. Əsərləri: "Anjelika", "Kral İveto" (opera), "Səyyah cəngavər" (balet) və s.

**16 avqust 1645** – Fransız yazıçısı Jan de Labryuer (Jean de La Bruyere; 1645-1696) anadan olub. Əxlaq və fəlsəfi dəyərlərdən bəhs edən "Xarakterlər" əsərinin müəllifidir.

**17 avqust 1932** – Hind əsilli yazıçı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2001) Vidiadxar Suracprosad Naypol (1932–2018) Trinidad və Tobaqoda anadan olub. Ömrünün böyük hissəsini İngiltərədə yaşayıb.

**17 avqust 1935** – Rus aktyoru, rejissor, SSRİ Xalq artisti Oleq Tabakov (1935 – 12.3.2018) anadan olub. A.Çexov adına Moskva Bədaye Teatrına rəhbərlik edib. 100-dən çox filmdə çəkilib.

**Hazırladı: V.Orxan**

# TÜRKSOY-un 30 illiyi münasibətilə məktəblilər arasında müsabiqələrə yekun vurulub

Xəbər verdiyimiz kimi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY bu il üzv ölkələrin məktəbliləri arasında inşa və rəsm müsabiqələri keçirib. Hər iki müsabiqə TÜRKSOY-un 30 illik yubileyinə həsr olunub.

Fevral ayında elan olunan “Türk dünyasının qızıl körpüsü – TÜRKSOY” mövzusunda inşa və “Türk dünyası uşaqların gözü ilə” mövzusunda rəsm müsabiqələrində Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Türkmənistan və Türkiyə məktəbliləri iştirak ediblər.

Şərtlərə görə, hər ölkənin təhsil sahəsi üzrə nazirlikləri müvafiq seçim keçirərək hər müsabiqə üzrə 10 məktəblinin əl işini və 10 inşa yazısını TÜRKSOY-a göndərməli idi. Daha sonra TÜRKSOY Katibliyində müsabiqə işləri dəyərləndirilib və hər ölkə üzrə 3 qalib seçilib.




Xatırladaq ki, bir müddət əvvəl “Türk dünyası uşaqların gözü ilə” mövzusunda rəsm müsabiqəsinə yekun vurulmuşdu. Azərbaycandan Günel Rzayeva, Dürdanə Allahverdiyeva, Aysu Nəcməddinova qaliblər arasında yer alıb.

Bu günlərdə isə “Türk dünyasının qızıl körpüsü – TÜRKSOY” mövzulu inşa müsabiqəsinin nəticələri açıqlanıb. Qeyd edək ki, 6 ölkənin hər birindən şagirdlər inşaları öz ana dillərində yazıblar. Buna görə də yazıların oxunması və qiymətləndirilməsi müəyyən vaxt aparıb.

Türk xalqlarının mədəniyyətinin, adət-ənənələrinin birliyinin qorunub saxlanılması və inkişaf etdirilməsi məqsədi daşıyan müsabiqədə altı ölkənin ümumtəhsil məktəblərinin 13-15 yaşlı şagirdləri iştirak ediblər.

Bu günlərdə inşa müsabiqəsinin qalibləri elan edilib. Azərbaycan məktəbliləri Nərmin Məmmədli, Yaqut Bəyova və Fatimə Məmmədova da mükafatlara layiq görülüblər.

Qeyd edək ki, müsabiqədə mükafat olaraq 1-ci yer üçün notbuk, 2-3-cü yerlər üçün isə planşet nəzərdə tutulmuşdu.

# Türkiyə artıq rusiyalı turistlər üçün bahalı marşrut sayılır

Bu ilin yayında Türkiyə ilk dəfə rusiyalı turistlər üçün ən bahalı ölkələrin beşliyinə daxil olub. Bu barədə Rusiya Turoperatorları Assosiasiyasının (ATOR) icraçı direktoru Maya Lomidze bildirib.

Onun sözlərinə görə, indiyədək Türkiyə istiqaməti həmişə kütləvi və sərfəli hesab edilib. Bu il həm Türkiyədə hotellərin qiymətləri qaldırması, həm də Rusiyadan təyyarə reyslərinin qiymətinin xeyli artması bu ölkədə istirahəti bahalaşdırıb.

Maya Lomidze qeyd edib ki, bu yay ən bahalı istiqamət Maldiv adalarıdır, oraya 10 günlük səyahətin qiyməti iki nəfər üçün orta hesabla 390 min rubl təşkil edir. İkinci yeri Kuba (238 min rubl), üçüncü yeri Şri-Lanka (213 min rubl) tutur, onun ardınca isə Türkiyə gəlir (185 min rubl).

Ötən il Türkiyəyə 5,2 milyonu ruslar olmaqla, 44,6 milyondan çox xarici turist gəlib.



Rusiyadan gələn turistlərin sayında rekord göstərici isə 2018-ci ildə qeydə alınıb. O vaxt Türkiyə 6 milyona yaxın rusiyalı turisti qəbul etmişdi.

# Hər il 570 milyon ton qida məhsulları zibilliyə atılır

## 735 milyon insan aclıqdan əziyyət çəkir...

Dünya əhalisi artdıqca qida məhsullarına tələbat da artacaq. Son 50 ildə kənd təsərrüfatı məhsullarının istehsalı təxminən 300 faiz artıb.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) “Dünyada ərzaq təhlükəsizliyi və qidalanmada vəziyyət – 2023” hesabatındakı məlumatlara görə, dünyada orta hesabla 735 milyon insan aclıqdan və doyunca yeməməkdən əziyyət çəkir, eyni zamanda böyük miqdarda yeməli qida itkiyə və ya tullantıya çevrilir.

BMT-nin Ətraf Mühit Proqramının məlumatına görə, məişət vərdişləri səbəbindən dünyada hər il təxminən 570 milyon ton qida məhsulları atılır. FAO qida tullantılarının qarşısını almaq üçün tətbiqi asan olan məsləhətlər və tövsiyələrdən ibarət praktik təlimat hazırlayıb. Təlimat alış-verişdə israfçılıqdan qida istehlakına qədər bir neçə mərhələni əhatə edir.

“Qida tullantılarının yaranmasına gətirən səbəblər, o cümlədən fərdi və sosial amillər çoxdur. Buna görə qida tullantılarının həcminin azaldılması üçün müxtəlif səviyyələrdə tədbirlər, həmçinin qida sənayesi müəssisələrinin və siyasətçilərin koordinasiyalı hərəkətləri lazımdır. Lakin infrastruktur, siyasət və normativ-hüquqi bazanın təkmilləşdirilməsi işinin əhəmiyyətinə baxmayaraq, bu tədbirlər yalnız istehlakçıların öz davranış qaydalarını dəyişdirməyə hazır olduqları təqdirdə işləyəcək”, – deyə FAO-nun kənd təsərrüfatı sənayesi üzrə mütəxəssisi Robert van Otterdiyk bildirib.

# Turizm vacibdir, lakin tarixi abidələri də qorumaq lazımdır

Bir neçə Avropa ölkəsi turistlər üçün məhdudiyyətlər tətbiq etmək qərarına gəlib. Səbəb kimi koronavirus pandemiyasından sonra səyahətçilərin axının artması və bəzi görməli məkanların turist baxımından həddindən artıq yüklənməsi göstərilir.



Yunanıstanda sentyabrın 4-dən Afina Akropolunu ziyarət edənlərin sayına görə kvotanın tətbiq edilməsi planlaşdırılır. Bu məkana gündə 20 mindən çox adam buraxılmayacaq. Hələ ki, limit sınaq rejimində tətbiq ediləcək, lakin gələn ilin aprel ayına qədər qayda məcburi olacaq. O vaxta qədər Yunanıstanın Mədəniyyət Nazirliyi səmərəliliyi qiymətləndirəcək və zəruri halda sistemi korrektə edəcək.

“Aydındır ki, turizm ölkə üçün, hamımız üçün vacibdir. Lakin biz elə etməliyik ki, tarixi abidələrə zərər dəyməsin”, – deyə mədəniyyət naziri Lina Mendoni qeyd edib.

O əlavə edib ki, oxşar təcrübə gələcəkdə Yunanıstanın digər görməli yerlərində də tətbiq olunacaq.

İtaliya da bəzi görməli yerləri qonaqlardan qorumağa səy göstərir. Romada turistlərdən biri tarixi abidə olan Trevi fontanında çiməndən sonra şəhər şurası obyektin ziyarət edilməsinə görə ödəniş tətbiq etməyi və ya xüsusi turniketlər quraşdırmağı təklif edib. Bundan başqa, iyul ayından Roma Panteonuna da giriş pullu olub.




## Olaylar, faktlar (11–17 avqust)

### 550 il əvvəl...

**11 avqust 1473-cü ildə** Uzun Həsənin başçılıq etdiyi Ağqoyunlu qoşunları ilə Osmanlı sultanı II Mehmet Fatehin qoşunları arasında Otluqbeli (Tərcan) döyüşü baş verib. Osmanlı ordusu qələbə çalıb və bir qədər əvvəl (1 avqust 1473) Malatya döyüşündə aldığı məğlubiyyətin əvəzini çıxıb. Bu döyüş Ağqoyunlu-Osmanlı müharibəsinin (1472-1473) taleyini ikincinin xeyrinə həll edib. Uzun Həsən müharibədə Avropa dövlətlərindən yardım vədi alsa da, bu, gerçəkləşmədi. Çünki Avropa dairələri iki türk dövlətinin savaş meydanında bir-birini zəif salmasında maraqlı idilər.

### 218 il əvvəl...

**12 avqust 1805-ci ildə** Rusiya-İran müharibəsi (1804-1813) gedişində rus qoşunları Bakı xanlığının strateji məntəqələrini ələ keçirərək şəhəri mühasirəyə alıblar. Lakin general Pavel Sisianovun başçılıq etdiyi qoşunlar müvəffəqiyyət qazanmayaraq geri çəkilib. 1806-cı ilin yanvarında Şirvan xanlığını da işğal edən rus qoşunları yenidən Bakıya yaxınlaşdı. Şəhəri təslim etmək haqqında Bakı xanı Hüseynqulu xanla danışıqlar aparılan zaman general Sisianov öldürüldü. Rus qoşunları 1806-cı ilin oktyabrında Bakını aldılar.

### 117 il əvvəl...



**16 avqust 1906-cı ildə** Nijni-Novqorod şəhərində Ümumrusiya müsəlmanlarının III qurultayı işə başlayıb. Avqustun 20-dək davam edən qurultayda Ümumrusiya Müsəlmanları İttifaqının proqram sənədləri, rəhbər strukturları təsdiqlənib. Əlimərdan bəy Topçubaşov Ümumrusiya Müsəlmanları İttifaqının rəhbəri seçilib.

### 76 il əvvəl...

**14 avqust 1947-ci ildə** Britaniyanın müstəmləkəsi olan “Britaniya Hindistanı” ərazisində iki dövlət – Hindistan və Pakistan yaranıb. Pakistanın tərkibinə “Britaniya Hindistanı”nın şimal-şərq və şimal-qərb bölgələri daxil olub. Bununla belə, iki ölkə arasında ərazi mübahisəsi (Kəşmir) bu gün də qalmaqdadır. “Hindistan İttifaqı” adı altında üç il mövcud olan dövlət isə 1950-ci ildə (26 yanvar) Hindistan Respublikası elan edildi. Odur ki, Pakistandan fərqli olaraq, Hindistan dövlət bayramını 26 yanvarda qeyd edir. 1971-ci ildə Şərqi Pakistanda müsəlman Banqladeş dövləti yarandı və o da müstəqilliyini elan etdi.

### 62 il əvvəl...

**13 avqust 1961-ci ildə** “Berlin divarı”nın tikintisi başlanıb. II Dünya müharibəsindən sonra Almaniyanın ikiyə bölünməsi ilə Berlin şəhəri də sektorlara ayrılmışdı. Şərqi Berlin (sovet sektoru) ADR-in paytaxtı olmuş, Qərbi Berlin isə AFR-in ərazisində qalmışdı. 1945-1961-ci illər ərzində Şərqi Almaniyadan təxminən 2,3 milyon alman Qərbi Almaniyaya qaçmışdı. Uzunluğu 45 kilometr olan “Berlin divarı” bu prosesin qarşısını almağa imkan verdi. Berlin divarı 1989-cu ildə, Almaniyanın birləşməsindən bir il öncə söküldü.

### 31 il əvvəl...

**15 avqust 1992-ci ildə** Azərbaycanda milli valyuta – manat dövriyyəyə buraxılıb. Azərbaycan müstəqilliyini 1991-ci ildə elan etsə də, keçmiş sovet rublu dövriyyədə idi. Milli valyutanın dövriyyəyə buraxılması barədə fərman 1992-ci il iyulun 15-də Prezident Əbülfəz Elçibəy tərəfindən imzalanmışdı. 1992-ci ildə 1, 5, 10, 250 manatlıq, 1993-cü ildə 50, 100, 500, 1000 manatlıq pul vahidlərini tədavülə buraxılıb. 1994-cü ilə qədər manat dövriyyədə köhnə sovet rublu ilə paralel işləyib.

### 24 il əvvəl...



**17 avqust 1999-cu ildə** Türkiyənin Mərmərə bölgəsində dəhşətli zəlzələ baş verib. Gecə saat 3 radələrində meydana gələn və episentrdə (Gölcük) 7,6 bal gücündə hiss edilən fəlakət İstanbul, Bursa, Sakarya, Bolu, İzmit, Yalova və s. şəhərlərdə böyük dağıntı və insan tələfatına səbəb oldu. Rəsmi statistika üzrə zəlzələ qurbanların sayı 17500 nəfər göstərilmişdi.

**Hazırladı: V.Orxan**

# Heydər Əliyev Sarayında saundtreklər konserti olacaq

Qazaxıstandan “BN Team Orchestra” Heydər Əliyev Sarayında növbəti musiqi proqramı ilə çıxış edəcək.




Sarayın mətbuat xidmətindən verilən məlumata görə, simfonik orkestr avqustun 24-də “Türk serialları dünyası” adlı layihə təqdim edəcək. Orkestrin ifasında “Möhtəşəm yüz il”, “Qara sevda”, “Çalıquşu”, “Çuxur”, “Min bir gecə”, “Hərcai” və başqa serialların məşhur musiqiləri səsləndiriləcək.

“BN Team Orchestra”nın Heydər Əliyev Sarayındakı musiqi proqramında həmçinin populyar Koreya seriallarından saundtreklər ifa olunacaq. Gecədə “Giləmeyvələrdən sonra çiçəklər”, “Al ürəklər: Koryo”, “Dolu ev” və s. seriallardan musiqilər səslənəcək.

Saundtreklər axşamında tamaşaçılar böyük ekranda sevimli seriallardan parçaları da izləyə biləcəklər.

“BN Team” Qazaxıstanın müxtəlif janrlarda fəaliyyət göstərən kreativ gənc musiqiçilər, aktyorlar və artistlər komandasıdır. Kollektiv son illərdə ölkədə, eləcə də Bakı, Daşkənd və Bişkekdə konsertlər verib.

# 11-ci Beynəlxalq “İpək Yolu” Film Festivalına müraciətlər başlayıb

Bu il dekabrın 15-18-də İstanbulda 11-ci Beynəlxalq “İpək Yolu” Film Festivalı keçiriləcək.




Ənənəvi festival Türkiyənin Kino və Televiziya İşi Sahibləri Peşəkar Dərnəyi (SETEM) və Mədəniyyət və Turizm Nazirliyi tərəfindən təşkil edilir.

Tarixi İpək Yolu coğrafiyası ölkələrini əhatə edən festivalın builki poster dizaynı üçün Qırğızıstandakı Çingiz Aytmatov Muzeyinin bağçasındakı Göytürklər dövrünə aid Umay Ana heykəli seçilib.

Milli və beynəlxalq kateqoriyada ümumilikdə 10 mükafatın təqdim ediləcəyi festivalda, həmçinin münsiflər heyətinin seçdiyi film “İpək Yolu qardaşlıq mükafatı”na layiq görüləcək.

Festivala qatılmaq istəyənlər oktyabrın 1-dək müraciət edə bilərlər. Ətraflı məlumat setem.org.tr saytında.

# Sağlığında heykəli qoyulan musiqiçilər

Böyük Britaniyanın “The Rolling Stones” rok qrupunun yaradıcıları Mik Caqqer (Michael Philip Jagger) və Kit Riçards (Keith Richards) bundan sonra Londonun yaxınlığında yerləşən doğma Dartford şəhərində heykəlləri ilə də pərəstişkarlarını salamlayacaqlar.



“The Glimmer Twins” adlı heykəltaraşlıq kompozisiyasının müəllifi Emi Qudmandır. Mik Caqqer əlində mikrofonla təsvir olunub. Onu gitarada Kit Riçards “müşayiət” edir.

Heykəllər 80 yaşlı musiqiçilərə yubiley hədiyyəsi də sayıla bilər. Mik Caqqer yubileyini 26 iyulda qeyd edib, Kit Riçardsın 80 yaşı 18 dekabrda tamam olacaq.

“The Rolling Stones” rok qrupu 1962-ci ildə yaradılıb və on ilə yaxın populyarlıq baxımından əfsanəvi “The Beatles” ilə rəqabət aparıb. 1970-ci ildə qrup halında fəaliyyətini dayandıran “Liverpul dördlüyü”ndən fərqli olaraq “The Rolling Stones” son illərədək səhnəyə çıxıb, konsert turları edib. 2021-ci ildə qrupun zərb alətləri ifaçısı Çarli Votss (Charles Robert Watts) 80 yaşında dünyasını dəyişib. Mik Caqqer və Kit Riçardsdan savayı qrupun bas-gitaraçısı Ronni Vud ( Ronald David Wood, 1947) da sağdır.

Dünya rok musiqisi tarixinin ən uğurlu və uzunömürlü qruplarından sayılan “The Rolling Stones”un albomlarının ümumi tirajı 250 milyonu keçib. Bunun 200 milyonu ABŞ-də satılıb.

**V.Kamal**

“Mədəniyyət” qəzeti redaksiyasının kollektivi qəzetin baş redaktorunun müavini Fariz Yunisliyə bibisi

**Mirvari Xanlarovanın**

vəfatı ilə əlaqədar dərin hüznlə başsağlığı verir.

**Allah rəhmət eləsin.**

Elan

Mikayılov Rəşad İsa oğlunun əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

“Mədəniyyət” qəzetinin kompüter mərkəzində səhifələnib, “Azərbaycan“ nəşriyyatında çap olunub.
**Tiraj:** 5053. **Sifariş:** 2105
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641